**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

1 noyabr 2025-ci il | №41 (9147) | www.muallim.edu.az | muallim@media.edu.az





## "ZəfərFest-5"

### Məktəblilər və gənclər vətənpərvərlik ruhunu və yaradıcılıq potensialını nümayiş etdirəcəklər

Noyabrın 6-da Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Sarayında Vətən müharibəsinin 5-ci ildönümünə həsr olunmuş “ZəfərFest-5” yaradıcılıq festivalı keçiriləcək. Vətən müharibəsində qazanılmış tarixi qələbəyə həsr olunan festival artıq beşinci ildir ki, təşkil olunur. “ZəfərFest” hər il məktəblilərin və gənclərin vətənpərvərlik ruhunun və yaradıcılıq potensialının nümayişi üçün mühüm platforma rolunu oynayır.

Festivalın əsas məqsədi Vətən müharibəsi şəhidlərinin xatirəsini ehtiramla anmaq, Azərbaycan Ordusunun şanlı zəfəri və ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan mübarizənin mahiyyəti barədə uşaq və gəncləri məlumatlandırmaqdır.

Tədbir həmçinin Vətən müharibəsində əldə edilmiş tarixi nailiyyətlərin, ordumuzun qəhrəmanlığının və bu zəfərin bütövlükdə türk dünyasının qələbəsi kimi əhəmiyyətinin gənc nəslə aşılanmasını nəzərdə tutur.

# 8 NOYABR - ZƏFƏR GÜNÜ

## BİZİM TARİXİMİZDƏ OLAN ƏN PARLAQ SƏHİFƏDİR



## Prezident İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşüb

> “Düz beş il bundan əvvəl bu ərazi işğaldan azad edildi və bu şanlı tarix hər zaman bizim qəlbimizdə yaşayacaq. Bir neçə gündən sonra biz tarixi Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik. 8 Noyabr – Zəfər Günü bizim tariximizdə olan ən parlaq səhifədir. Beş il bundan əvvəl tarixi Zəfərimiz bütün dünyaya səs salıb”.

## Cəbrayıl rayonunun Horovlu kəndində tam orta məktəb binası və körpələr evi-uşaq bağçası inşa olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak edib.

Təməli Prezident İlham Əliyev tərəfindən 2023-cü ildə qoyulmuş Horovlu kəndində fərdi evlər, digər sosial obyektlərlə yanaşı 624 şagird yerlik məktəb binasının, 220 yerlik körpələr evi-uşaq bağçasının tikintisi də həyata keçirilib.

Qeyd edək ki, burada inşa olunmuş körpələr evi-uşaq bağçasında balacaların rahatlığının təmin olunmasına xüsusi diqqət yetirilib. Bağçada yeməkxana, oyun və musiqi otaqları balacaların ixtiyarına veriləcək. Bundan başqa, binada inzibati, kompüter və metodika otaqları, bağçanın ərazisində uşaqların asudə vaxtlarını maraqlı keçirmələri üçün şərait yaradılıb.

Horovluda müasir tam orta məktəb binası da tikilib. Məktəb binasında tədrisin yüksək səviyyədə aparılması üçün geniş imkanlar mövcuddur. Təhsil ocağının sinif otaqları lazımi dərs vəsaiti və avadanlıqla təchiz olunub. Burada 26 sinif otağı, kimya, fizika, biologiya və informatika, musiqi, rəsm, hərbi hazırlıq otaqları, 4 laboratoriya, kitabxana şagirdlərin ixtiyarına veriləcək. Binada 180 yerlik akt zalı, qapalı idman zalı və yeməkxana da yaradılıb. Məktəbin ərazisində açıq idman meydançası da mövcuddur.





**Şəhid anası müəllim:**

## “Elə bilirəm Abbası yenidən böyüdürəm”



Kifayət müəllimin gəlini Siddiqə Qasımova da müəllimdir: “Onu Abbasa özüm tövsiyə etmişdim. Məktəbimizə müəllim kimi gəlmişdi. Ondan çox xoşum gəlirdi. Abbasa dedim ki, məktəbimizə balaca bir qız gəlib, elə gözəldir ki. O da gedib baxıb bəyəndi, evləndilər. İndi ikimiz birlikdə Abbasın yadigarlarını böyüdürük. Abbas bizi necə bir yerdə qoyub gedib, eləcə davam edirik. Balamın yerində indi balası yatır”.

“Onu itirməklə 30 illik sirdaşımı itirdim, güvən yerimi, arxa-dayağımı itirdim. Çox acıdır. Oğulsuz gəlin saxlamaq, atasız nəvələr böyütmək çox çətindir. Amma onlar həm də ən böyük təsəllimdir. Oğlanlarından biri həm görünüşünə, həm də xarakterinə görə özünə oxşayır. Elə bilirəm Abbası yenidən böyüdürəm”.

Bax səh.2

## Ali təhsildə imkan bərabərsizliyini necə aradan qaldırmaq olar?

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Təhsil və səriştələr departamentinin direktoru Andreas Şleyxerin növbəti məqaləsi ali təhsildə imkanlar məsələsinə həsr olunub.

“Ali təhsildə imkan bərabərsizliyini necə aradan qaldırmaq olar?” adlı məqaləsində A.Şleyxer qeyd edir ki, son illərdə dünya ölkələrində ali təhsilin səviyyəsi indiyədək görünməmiş dərəcədə yüksəlib. OECD-yə üzv ölkələrdə gənclərin demək olar ki, yarısı universitet və ya digər ali təhsil formalarını bitirir. Hazırda gənclərin təxminən 48%-i bu səviyyəyə çatır, halbuki 2000-ci ildə bu göstərici 27% idi. Bu şəxslər adətən daha yüksək gəlir qazanır, daha sabit iş yerlərinə malik olur və cəmiyyətdə daha fəal iştirak edirlər. Bu misilsiz nailiyyət siyasətçilərin atdığı addımların nəticəsidir. Lakin ali təhsil imkanlarının genişlənməsinə baxmayaraq, “Education at a Glance 2025” hesabatı davamlı bir problem, aşağı sosial-iqtisadi təbəqələrdən olan uşaqların üzləşdiyi bərabərsizlik məsələsini önə çıxarır.

Ardı səh.6

Ali təhsil müəssisələrinə qəbulun, müəllimlərin işə qəbulu müsabiqəsinin nəticələri təhlil edilir. Rəqəmlər, sadəcə mövcud vəziyyəti göstərmir, həm də gələcəyi müəyyənləşdirir, hətta daha böyük gələcəyə hesablanmış qərarlara təsir edir. Həmin rəqəmlər Elm və Təhsil Nazirliyinin tabeliyində olan qurumların nümayəndələrinin və ali təhsil müəssisələrinin rəhbərlərinin iştirakı ilə bu günlərdə təşkil edilən müzakirələrdə əsas istinad mənbəyi olub. Toplanma səbəbi isə növbəti tədris ili üçün ali təhsil müəssisələrinə tələbə qəbulunun proqnozlaşdırılması idi.

## Ali təhsilin əlçatanlığı və əhatəliliyi artırılıb

Azərbaycan Texniki Universitetində reallaşan müzakirələr növbəti tədris ili üçün bakalavriat, magistratura və doktorantura səviyyələrində ali təhsil müəssisələrinə tələbə qəbulu layihələrinin hazırlanması məqsədilə artıq ikinci ildir təşkil edilib. Müzakirələrdə ali təhsil müəssisələrinin nümayəndələri fəal iştirak edərək öz təkliflərini səsləndirib, yeni ilin qəbul planında nəzərə alınmasını vacib hesab etdikləri məqamlara diqqət çəkiblər.

Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli müzakirələri açaraq bildirib ki, tədbirin keçirilməsində əsas məqsəd növbəti tədris ili üçün qəbul planının hazırlanmasıdır. Bu prosesdə müşahidə olunan çətinliklərə diqqət çəkən müşavir qeyd edib ki, müzakirələr nəticəsində atılması nəzərdə tutulan addımların uzun perspektivdə nələrə gətirib çıxaracağı ilə bağlı düşüncələr ortaya çıxır və bu, görüləcək tədbirlərin düşünülmüş, məqsədyönlü olmasını təmin edir.

Ardı səh.6

# ŞANLI ZƏFƏRİN BEŞİNCİ İLDÖNÜMÜ



## “Elə bilirəm Abbası yenidən böyüdürəm”

“Sentyabrın 28-i idi. Məktəbin qabağına çatmışdım ki, bacım dedi ki, evə get, Abbası gətirirlər”. Dünya başına fırlandığı o gündən Kifayət müəllimin cəmiyyətdə statusu dəyişdi. 2000-ci ildən sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbinin müəllimi Kifayət Qasımova şəhid Abbas Qasımovun anası kimi tanındı.



### Şəhid anası müəllim:

## “Balamın yerində indi balası yatır”

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının mayoru olan hərbi pilot Abbas Qasımov 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatlarına qatılaraq ərazilərimizin işğaldan azad edilməsi üçün başlanan Vətən müharibəsinin ilk günündə - sentyabrın 27-də birgə uçduğu baş leytenant Xalid Gözəlov ilə birlikdə qəhrəmancasına şəhid olub. Vətən müharibəsinin başladığı ilk dəqiqələrdə şəhid olduqlarından Abbas Qasımov və baş leytenant Xalid Gözəlov müharibənin ilk şəhidlərindən sayılırlar.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamları ilə Abbas Qasımov ölümündən sonra “Vətən uğrunda”, “Qubadlının azad olunmasına görə” medalları, 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilib.

Şəhid anası müəllim Kifayət Qasımova deyir ki, acılarla dolu qəribə tale yaşayıb və Qarabağ bu acıların mərkəzində dayanıb, erməni təxribatı, erməni cinayəti, erməni işğalı böyük iz qoyub onun və ailəsinin həyatında, necə deyərlər, həmin zolağın bir ucu 1988-ci ilin dekabrından, yəni onun, yenicə qurduğu ailəsi ilə öz yurdundan deportasiya olunması ilə başlayıb, oğlunun şəhadəti və Qarabağın işğaldan azad olunması ilə bitib.

İrəvan mahalının Zəngibasar rayonundan deportasiya olunan ailələrdən biri də onun ailəsi olub. Amma qaçqın həyatının çətinliyi gözünə də görünməyib. Rzaya və onunla birlikdə sahib olduqları ən dəyərli varlıqları - biri qız olan iki övladının sevgisindən güc alaraq qaçqınlığın hər çətinliyinə sinə gərib: “Çox xoşbəxt idim. Sevilirdim, sevirdim. Hamı mənə qibtə edirdi. Elə bir ailə həyatım vardı ki...”.

Gələcəyə nikbin baxıb, iki övladına və peşəsinə - müəllimliyə ikiəlli sarılaraq onları böyüdüb.





### Danışan rəqəmlər...

Kifayət müəllim oğlunun taleyində acılı-şirinli “rol alan” rəqəmlərə də diqqət çəkir. “7”ləri xüsusi vurğulayaraq oğlunun hekayəsini anladır: “Abbas 1986-cı il martın 17-də Zəngibasar rayonunun Rəhimabad kəndində anadan olub. “7” ilə növbəti böyük qarşılaşması oxuduğu məktəbin sıra nömrəsinə düşüb. O, 1993-2003-cü illərdə Binəqədi rayonunda F.İsgəndərov adına 157 nömrəli tam orta məktəbdə oxuyub. 2003-2007-ci illərdə Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasında ali təhsil alıb. Ona verilən ev 7-ci mərtəbədə 27-ci mənzil idi. Aprelin 17-də toyu olub, 7 il ailəli qalıb. Sonuncu “7”nin iştirakı ilə adı tarixə Vətən müharibəsinin ilk şəhidi kimi yazılıb”.



Sadəcə “7” deyil, onların qəribə taleyində “6” da öz sözünü deyib: “Abbas 6 yaşında olanda atasını itirdi. Özü şəhid olanda isə atasının adını daşıyan oğlu Əlirza 6 yaşında idi. Heç məktəbə aparmağa da gələ bilməmişdi, təlimlərdə idilər”.

Abbas Milli Təhlükəsizlik Akademiyasının Sərhəd qoşunları fakültəsində təhsil almışdı. Qusar rayonunda 6 il zastava rəisi işləyib. O işindən anası üçün imtina etməli olub: “Qızımı evləndirdikdən sonra tək qalmışdım deyə planlarını dəyişib Bakıya qayıtdı. Uşaqlığından pilot olmaq arzusu vardı. Milli Aviasiya Akademiyasında bir illik kurs keçdi. Pilot kimi fəaliyyətinə davam etdi, pilot kimi də şəhid oldu. Qüsursuz xidmətinə görə həmişə fərqlənib təltif olunurdu. Ölümündən sonra da təltiflər aldı”.

### Onu da bir müəllim böyütmüşdü, indi oğlanlarını da müəllim böyüdür

Kifayət müəllim şəhid anası olmadan müəllim olub, amma əvvəlcə tərbiyəçi müəllim: “Zəngibasar rayonunun Rəncbər kənd məktəbindən məzun olandan sonra Bakıda əvvəlcə “Pioner baş dəstə rəhbəri” ixtisası üzrə təhsil aldım. Sonra Bakı Sənaye Pedaqoji Texnikumunda “Müalicə və bədən tərbiyəsi ixtisasını bitirdim. Rayonumuza qayıdıb bağçada tərbiyəçi müəllim işlədim. Yurdumuzdan deportasiya olunandan sonra da fəaliyyətimi Bakıda bağça müəllimi kimi davam etdirdim. 1993-2007-ci illərdə 210 nömrəli bağçada işlədim. 2007-ci ildən 5 nömrəli xüsusi internat məktəbində tərbiyəçi müəllim, 2012-ci ildən müalicəvi bədən tərbiyəsi müəllimiyəm”.

Kifayət müəllimin gəlini Siddiqə Qasımova da müəllimdir: “Onu Abbasa özüm tövsiyə etmişdim. Məktəbimizə müəllim kimi gəlmişdi. Ondan çox xoşum gəlirdi. Abbasa dedim ki, məktəbimizə balaca bir qız gəlib, elə gözəldir ki. O da gedib baxıb bəyəndi, evləndilər. İndi ikimiz birlikdə Abbasın yadigarlarını böyüdürük. Abbas bizi necə bir yerdə qoyub gedib, eləcə davam edirik. Balamın yerində indi balası yatır”.

Kifayət müəllim deyir ki, Abbasla birlikdə hər şeyini itirmiş kimi hiss edir: “Onu itirməklə 30 illik sirdaşımı itirdim, güvən yerimi, arxa-dayağımı itirdim. Çox acıdır. Oğulsuz gəlin saxlamaq, atasız nəvələr böyütmək çox çətindir. Amma onlar həm də ən böyük təsəllimdir. Oğlanlarından biri həm görünüşünə, həm də xarakterinə görə özünə oxşayır. Elə bilirəm Abbası yenidən böyüdürəm”.

**Ruhiyyə DAŞSALAHLI**

# “Maarifçi”lərin şəbəkəsi yaranır




## III “Maarifçi” tələbə-məzun təcrübə proqramı yekunlaşdı

III “Maarifçi” tələbə-məzun təcrübə proqramı yekunlaşıb. 42 gənc 4 aylıq təcrübəsini uğurla başa vurub və hər biri nazir Emin Əmrullayevin imzası ilə Elm və Təhsil Nazirliyinin sertifikatlarına layiq görülüb. Sertifikatları onlara elə nazir özü təşkil olunan görüşdə təqdim edib.



### 252 saatlıq mərhələdən 49 nəfər uğurla çıxdı

Görüşdə Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli III “Maarifçi” tələbə-məzun təcrübə proqramının keçdiyi yola qısa nəzər salıb. O, məlumat verib ki, proqrama 3542 nəfər müraciət edib. Onlardan 2037 nəfər imtahan mərhələsinə qatılıb. İmtahanlardan uğurla keçən 318 nəfər müsahibə mərhələsinə dəvət edilib. 252 saat çəkən müsahibə mərhələsinin nəticələrinə görə 49 nəfər seçilsə də, 4 aylıq təcrübə dövründə 42 nəfər uğurla iştirak edərək sertifikata layiq görülüb: “Sevindirici haldır ki, bu dəfə biz həm “Maarifçi”lərin sayını, həm də proqramın coğrafiyasını genişləndirdik. Bu il ölkəmizin müxtəlif regionları, o cümlədən Naxçıvan Muxtar Respublikası əhatə olunub”.



M.Kərimli əlavə edib ki, I və II “Maarifçi” proqramına 59 nəfər qatılmışdı. III “Maarifçi” proqramı ilə ölkə “Maarifçi”lərinin sayı 101 nəfərə çatıb: “Artıq bizim 101 nəfərdən ibarət “Maarifçi” şəbəkəmiz var”.

24 nəfərin Elm və Təhsil Nazirliyində işə qəbul edildiyini vurğulayan Aparat rəhbəri bəzi “Maarifçi”lərin artıq dövlət qulluqçusu olduğuna diqqət çəkib.

Mətin Kərimlinin rəqəmlərlə ifadə etdiyi “Maarifçi” yoluna bir neçə dəqiqəlik videoçarxla da nəzər salınıb. Gənclərin karyera üçün atdıqları ilk həyəcanlı addımlar təqdim edilib. Təqdimat istər proqram iştirakçılarının, istərsə də, nazirlik rəhbərliyinin birgə fəaliyyətinin ən maraqlı məqamlarını əks etdirib.

### Hələ də dövlət qulluqçusu olmaq istəyirsən?

Nazir Emin Əmrullayev gənclərin düşüncələrində 4 aylıq təcrübənin hansısa dəyişikliklər yaradıb-yaratmaması ilə maraqlanıb. Onlarla söhbəti proqramın nə qədər faydalı olması üzərində qurub. “Proqram onlar üçün nə dərəcədə faydalı oldu? Proqramın sonunda gələcəyi ilə bağlı qərarını dəyişənlər varmı? Karyeralarına dövlət qulluqçusu olaraq davam etmək istədiyinə hələ də əmindirlərmi? Gənclərin təhsil sektorunda dərhal dəyişmək istədikləri 3 şey nədir?” - kimi suallar ətrafında qurulan müzakirələrdə maraqlı məlumatlar, təbəssüm yaradan faktlar ortaya çıxıb. Gənclər təcrübə dövründə maraqlarına səbəb olan hadisələrdən danışıb, suallarına cavab tapıblar.

Görüşü yekunlaşdıran nazir Emin Əmrullayev gənclərə uğurlar arzulayıb: “Həyatda uğurlu olmaq asan deyil. Əslində, çətin olan uğuru qazanmaq yox, onun davamlılığıdır”.

Nazir gənclərə tövsiyə edib: “İllər keçdikcə insanın baxış bucağı dəyişir. Əslində, dəyişməlidir, bundan qorxmaq lazım deyil. Çünki reallıqlar da dəyişir”.

Görüşdən sonra gənc “Maarifçi”lər 4 aylıq təcrübə ilə bağlı fikirlərini, görüşlə bağlı təəssüratlarını “Azərbaycan müəllimi” ilə bölüşüb:

### “Proqram gələcək hədəflərim üçün sükan rolunu oynadı”

Aytən Ağasıyeva proqrama Naxçıvan Muxtar Respublikasından qatılıb, Naxçıvan Elm və Təhsil Nazirliyində təcrübə keçib: “İnsan resursları və sənədlərlə iş şöbəsində təcrübə keçdim. Yeni dostluqlar, maraqlı əlaqələr qurdum. Proqram gələcək hədəflərim üçün sükan rolunu oynadı”.

Aytən Naxçıvan Dövlət Universitetinin məzunudur. O, burada “Fizika müəllimliyi” ixtisası üzrə təhsil alıb. “Təhsildə qiymətləndirmə və monitorinq” ixtisası üzrə magistr dərəcəsi alıb. Fəal tələbəlik həyatı yaşayıb, konfranslara qatılıb, tez-tez elmi mühitdə təmsil olunub. Nazirlə görüşü arzularından birinin reallaşması kimi qiymətləndirir: “Nazirlə eyni mühitdə olmaq, canlı əlaqə qurmaq hər tələbənin, hər məzunun arzuladığı bir haldır”.

### “Universitetdə aldığım nəzəri bilikləri “Maarifçi” təcrübə proqramı çərçivəsində tətbiq etmək imkanım yarandı”

Türkan Əsədova isə Abşeron-Xızı Regional Təhsil İdarəsində keçdiyi 4 aylıq təcrübə dövründə maraqlı faktlarla qarşılaşıb: “Tədrisin keyfiyyəti sektorunda təcrübə keçdim. Bu vaxta qədər bir sıra başqa təcrübə proqramlarına da qatılmışam. Amma ən maraqlı, faydalı olan “Maarifçi” oldu. Azərbaycan Dövlət Pedaqoji Universitetində “Təlim və tədrisin təşkili metodikası” ixtisası üzrə SABAH qruplarında bakalavr təhsili almışdım. Universitetdə aldığım nəzəri bilikləri 4 ay ərzində “Maarifçi” təcrübə proqramı çərçivəsində tətbiq etmək imkanım yarandı”.

Gənc “Maarifçi” iştirakçısı olduğu təcrübə proqramlarını da müqayisə edib: “Maarifçi”ni digərlərindən fərqləndirən əsas xüsusiyyət ondan ibarətdir ki, biz burada özümüzü tamhüquqlu əməkdaş kimi hiss etdik. Bizim üçün elə mühit yaradıldı, elə münasibət göstərildi ki, təcrübəçi olduğumuzu hiss etmədik”.

Nazirin iştirakı ilə keçirilən tədbirlər və görüşlər Türkan Əsədova üçün yaddaqalan olub.

### “Vətəndaş müraciətləri ilə işlədim və bu, mənə karyera istiqamətində böyük inkişaf qazandırdı”

Günel Mahmudova Qarabağ Regional Təhsil İdarəsində Vətəndaş müraciətləri ilə iş sektorunda təcrübə keçib və 4 aylıq bu dövrü uğurla başa vurub: “Bu təcrübə proqramına qatılmaq və 42 nəfərdən biri olaraq sertifikat almaq mənim üçün qürurverici oldu. Məncə, gələcəkdə dövlət qulluqçusu olmaq istiqamətində bu 4 aylıq təcrübə potensial imkanlar yaratdı. Üstəlik, vətəndaş müraciətləri ilə işlədim və bu, mənə karyera istiqamətində böyük inkişaf qazandırdı”.

İşlədiyi bölgənin Qarabağ olması isə iş prosesini onun üçün xüsusilə maraqlı edib: “İşğaldan azad olunan ərazilərdə yaşayan insanlarla işləmək gələcəkdə uğur imkanlarını artırır. Hər vətəndaş müraciəti insanı bir az da çox inkişaf etdirir. Çünki vətəndaşların müraciətlərindən asılı olaraq bütün şöbə və sektorlarla işləyib daha böyük təcrübə qazandım”.

Günel Bakı Dövlət Universitetində “Jurnalistika” üzrə bakalavr, “Beynəlxalq jurnalistika və informasiya siyasəti” ixtisası üzrə magistr təhsili alıb. Gələcək planları təhsil sahəsi ilə birbaşa bağlıdır: “Həyatımın sonrakı mərhələsində Elm və Təhsil Nazirliyi və onun struktur bölmələrində işləmək istəyərəm”.

### “Çağrı Mərkəzində iş mənim üçün xüsusilə faydalı oldu”

Şəbnəm Quliyeva isə Mərkəzi Aran Regional Təhsil İdarəsinin İnzibati sektorunda 4 aylıq təcrübəsindən məmnun görünür: “Təcrübə dövründə təhsil ilə bağlı bir çox məsələlər gündəmimizdə oldu. Vətəndaşlarla işləməyi çox sevirəm və bu 4 ayda da vətəndaşlarla fəal şəkildə işlədim. Çağrı Mərkəzində iş mənim üçün, xüsusilə faydalı oldu”.

Şəbnəm də hesab edir ki, yaradılan münbit iş mühiti bu proqramın ən cəlbedici tərəfi olub: “Bizimlə qurumun öz əməkdaşı kimi davranmaları bizi ruhlandırırdı, işə daha çox can yandırırdıq”.

### “Maarifçi”də olmaq təcrübəmi zənginləşdirib, bacarıqlarımı inkişaf etdirib”

İlqarə Mirzəyeva Bakı Dövlət Universitetinin SABAH qruplarında “Fizika müəllimliyi” ixtisası üzrə təhsil alıb. 4 aylıq təcrübə dövrünü Quba-Xaçmaz Regional Təhsil İdarəsində Tədrisin keyfiyyəti sektorunda başa vurub: “Proqramda iştirakımı həyatımda qazandığım uğurlardan biri hesab edirəm. Real təcrübə yaşadıq, yeni insanlarla tanış olduq, təhsil sahəsinin içində prosesləri izləmək imkanımız oldu. Bu imkan xüsusilə dəyərlidir, çünki kənardan görə bilmədiyimiz bir çox məqamlara prosesin içərisində cavab tapdıq”.

İlqarə deyir ki, belə bir imkan olsa, yenə məmnuniyyətlə qatılar.

O, fəal tələbəlik həyatından sonra maraqlı təcrübə qazandığını bildirir: “Tələbəlikdən bəri çox fəal olmuşam. SABAH qrupları nəzdində fəaliyyət göstərən Sabah Yaradıcılıq təşkilatının yaradıcısı olmuşam. BDU-nun nəzdində “Gənc Rəssamlar” dərnəyində əvvəlcə müəllimlik, sonra rəhbərlik etdim. Bir çox layihələrdə, könüllülük proqramlarında iştirak etmişəm. Bunlardan sonra “Maarifçi”də olmaq təcrübəmi zənginləşdirib, bacarıqlarımı əhəmiyyətli dərəcədə inkişaf etdirib”.

BDU məzunu sözlərinə əlavə edərək deyir: “Uşaqlıqdan özümü televiziya kanalında öyrədici, maarifləndirici bir proqramın aparıcısı kimi təsəvvür etmişəm. Bu sahə mənə yaxındır. Universal olmağa çalışan, özünü hər sahədə görən biriyəm. Qiraət yarışlarında iştirak etmişəm. İncəsənət də, təhsil də mənə eyni dərəcədə yaxındır. Hesab edirəm ki, bütün sahələr arasında əlaqə var. İxtisaslar, fənlər arasında əlaqə qurarkən ayrı-ayrı sahələr arasında əlaqə yaratmağı da öyrənmişik. Mən sevdiyim, marağımı cəlb edən işlərin arasında oxşarlıq tapıb onların uyğunluğunu yaratmağı sevirəm. “Maarifçi” proqramında məktəblilərlə, müəllimlərlə işlədik və məktəblilərin əlavə bacarıqlarının inkişafının əhəmiyyəti hər birimizə məlumdur”.

İlqarə nə təcrübə keçdiyi təhsil sektorunda, nə də nazirlə görüşdə özünü yad mühitdəymiş kimi hiss etməyib: “Çox doğma bir ortam idi. Olduqca xoşbəxtəm ki, bu 4 ayı “Maarifçi” proqramında oldum. Çox şadam ki, nazirlə görüşdə mən də iştirak etdim”.

**Ruhiyyə DAŞSALAHLI**

# Elm və təhsil naziri Salyanda vətəndaşları qəbul edib



Oktyabrın 31-də elm və təhsil naziri Emin Əmrullayev Salyan şəhərində vətəndaş qəbulu keçirib.

Qəbulda Salyan, Şirvan, Hacıqabul, Neftçala və Biləsuvar sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbul zamanı vətəndaşlar işlə təmin olunma, sertifikatlaşdırma prosesi və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Emin Əmrullayev İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri ilə görüşüb



Oktyabrın 27-də elm və təhsil naziri Emin Əmrullayev İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ronen Krausz ilə görüşüb. Görüş çərçivəsində İsrail Dövləti ilə elm və təhsil sahəsində əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib.

# “Elm və təhsil yeniliklərinin media təqdimatı”



## Elm və Təhsil Nazirliyi media nümayəndələri üçün təlim keçirib

24-25 oktyabr 2025-ci il tarixlərində Elm və Təhsil Nazirliyi tərəfindən media nümayəndələri üçün “Elm və təhsil yeniliklərinin media təqdimatı” mövzusunda iki günlük təlim təşkil olunub.

Təlimin məqsədi elm və təhsil sahəsində həyata keçirilən islahatlar, yeniliklər və strateji istiqamətlərin media müstəvisində düzgün təqdimatı bacarıqlarını artırmaq, həmçinin təhsil jurnalistikasının inkişafına dəstək vermək olub.

Proqram çərçivəsində media nümayəndələri üçün dörd panel sessiya təşkil edilib.

Birinci paneldə Elm və Təhsil Nazirliyinin Strateji planlaşdırma və təhlil şöbəsinin müdiri Leyla Xəlilova Rzazadə “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda elm və təhsil hədəfləri və nailiyyətlər mövzusunda təqdimatla çıxış edib.

İkinci paneldə elm və təhsil nazirinin müşaviri, Təhsil İnstitutunun direktor əvəzi Elnur Əliyev və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Vəfa Yaqublu məktəbəqədər və ümumi təhsil sahəsində yeniliklər, beynəlxalq qiymətləndirmələr və monitorinqlər barədə məlumat veriblər.

Təlimin üçüncü panelində Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin nəzdində fəaliyyət göstərən Teleradio Akademiyasının rektoru Almaz Mahmud “Elm və təhsil mediada: təhsil jurnalistikası” mövzusunda təqdimatla çıxış edib.

Təlimin ikinci günündə “Elm və ali təhsil sahəsində hədəflər” mövzusunda panel sessiyası təşkil edilib. Sessiyada Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman bu istiqamətdə görülən işlər və prioritetlər barədə məlumat verib.

Panel müzakirələrindən sonra elm və təhsil naziri Emin Əmrullayevin iştirakı ilə media ilə əməkdaşlığın əhəmiyyəti, ictimaiyyətlə açıq və şəffaf kommunikasiya mexanizmlərinin gücləndirilməsi istiqamətində fikir və təkliflər müzakirə olunub.

Təlim proqramı iştirakçılara sertifikatların təqdim edilməsi ilə yekunlaşıb.

# QADINLARIN TƏHSİLİ CƏMİYYƏTİN İNKİŞAFINI MÜƏYYƏN EDƏN ƏSAS AMİLLƏRDƏNDİR

## “Hənifə Məlikova-Zərdabi adına təqaüd proqramı 2025”in təqdimat mərasimi keçirilib










**Emin ƏMRULLAYEV:**

**“Mühəndislik və texniki sahələrə meyil göstərən gənc qızların sayı artır. Hər bir qızın aldığı təhsil gələcək nəslə böyük təsir göstərir.**

**Qadınlar cəmiyyətdə bərabərhüquqlu vətəndaşlar kimi iştirak etdikdə həm ailədə, həm iş yerində, həm də ümumi sosial həyatda müsbət dəyişikliklər baş verir.**

**Qızların təhsilinə dəstək verilməsi yalnız fərdi inkişaf üçün deyil, həm də cəmiyyətin ümumi tərəqqisi üçün böyük əhəmiyyət kəsb edir.**

**Biz məktəblərdə və ali təhsil müəssisələrində gənc qızların potensialını tam şəkildə reallaşdırmaq üçün əlavə imkanlar yaratmalıyıq.**

**Azərbaycanda ali təhsildə iştirak edən gənc qızların sayı ildən-ilə artır və bu, ölkəmizdə təhsilin və bərabər imkanların inkişafını göstərir.**

**Qadınların təhsili cəmiyyətin inkişafını müəyyən edən əsas amillərdəndir. Qadınların inkişafı ilə təhsilin inkişafı arasında sıx əlaqə var.**

**Təhsil prizmasından baxdıqda görürük ki, qadının cəmiyyətdəki mövqeyi, ictimai və sosial gücü istənilən təhsil sisteminin keyfiyyətini və funksionallığını müəyyən edən əsas amillərdəndir.**

**Bu cür layihələr qadınların təhsil imkanlarını genişləndirməklə yanaşı, ölkənin sosial və iqtisadi inkişafına da mühüm töhfə verir”.**

Oktyabrın 27-də “Gənc qızların təhsilinə dəstək” layihəsi çərçivəsində həyata keçirilən “Hənifə Məlikova-Zərdabi adına təqaüd proqramı”nın 2025-ci il üzrə təqdimat mərasimi keçirilib.

Tədbir layihəyə yeni qoşulan, regionlar üzrə ən yüksək bal toplamış 93 tələbə qızla tanışlıq, eləcə də proqramın məqsəd və fəaliyyət istiqamətləri barədə məlumatlandırma üçün təşkil olunub. Mərasimdə dövlət qurumlarının, özəl sektorun, ali təhsil müəssisələrinin və tərəfdaş təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb, ardınca “Gənc qızların təhsilinə dəstək” layihəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova layihənin ölkəmizdə qadınların təhsili və inkişafı istiqamətində atılan mühüm addımlardan biri olduğunu vurğulayıb. O qeyd edib ki, gənc qızların təhsilinə qoyulan sərmayə onların gələcəkdə cəmiyyətin sosial-iqtisadi inkişafında daha fəal iştirakına şərait yaradır. Bahar Muradova bildirib ki, qadınların təhsil imkanlarının genişləndirilməsi ölkənin gələcək rifahı və dayanıqlı inkişafı baxımından prioritet məsələdir.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında qadınların təhsilinin cəmiyyətin inkişafını müəyyən edən əsas amillərdən biri olduğunu vurğulayıb. Nazir qeyd edib ki, qadınların rolu və inkişafı ilə təhsilin inkişafı arasında birbaşa əlaqə mövcuddur. Nazirin sözlərinə görə, qızların təhsilinə dəstək verilməsi yalnız fərdi inkişaf üçün deyil, həm də bütövlükdə cəmiyyətin tərəqqisi üçün böyük əhəmiyyət kəsb edir.

Emin Əmrullayev bildirib ki, Azərbaycanda ali təhsil alan gənc qızların sayı ildən-ilə artır və bu, təhsildə bərabər imkanların təmin edilməsinə yönəlmiş siyasətin nəticəsidir. Nazir vurğulayıb ki, uzunmüddətli perspektivdə bu təşəbbüslər cəmiyyətin sosial strukturunda müsbət dəyişikliklər yaradacaq, çünki bu gün ali təhsil alan qızlar gələcəkdə təhsilli və müasir düşüncəli analar kimi yeni nəsillərin formalaşmasına töhfə verəcəklər.

Elm və Təhsil Nazirliyinin Təhsilin iqtisadiyyatı şöbəsinin müdiri, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədr vəzifəsini müvəqqəti icra edən İlqar Bayramlı fondun qadınların təhsili istiqamətində həyata keçirdiyi layihələr barədə məlumat verib, “Hənifə Məlikova-Zərdabi adına təqaüd proqramı”nın davamlı təşəbbüslər sırasında olduğunu vurğulayıb.

Təqaüdçülər adından çıxış edən Bakı Dövlət Universitetinin tələbəsi Duyğu Əsgərli göstərilən dəstəyə görə təşəkkürünü bildirərək bu proqramın onun kimi gənc qızlara yeni təhsil və inkişaf imkanları yaratdığını qeyd edib.

Təqaüdçülərin təltif edilməsi ilə davam edən mərasim bədii hissə ilə yekunlaşıb.

Qeyd edək ki, “Hənifə Məlikova-Zərdabi adına təqaüd proqramı” 2021-ci ildən etibarən həyata keçirilir və indiyədək 250-dən çox qız tələbənin təhsil və peşəkar inkişafına dəstək göstərilib. Layihə çərçivəsində regionlar üzrə ali məktəblərə yüksək balla qəbul olunmuş, aztəminatlı və həssas qruplardan olan qız tələbələrə dəstək təqdim edilir.

# Nazirliyin nümayəndə heyəti UNESCO-nun Baş Konfransının 43-cü sessiyasında iştirak edir




Oktyabrın 30-da Özbəkistanın Səmərqənd şəhərində Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatının (UNESCO) Baş Konfransının 43-cü sessiyasının açılış mərasimi keçirilib.

Tədbirdə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, UNESCO-nun Baş direktoru Odri Azule, eləcə də UNESCO üzv dövlətlərinin yüksək səviyyəli rəsmi nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikasını konfransda xarici işlər naziri Ceyhun Bayramovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir. Nümayəndə heyətinin tərkibində elm və təhsil nazirinin müavini Həsən Həsənli yer alır.

Konfrans çərçivəsində üzv dövlətlər tərəfindən UNESCO-nun növbəti dövr üçün prioritet istiqamətləri — təhsilin inklüzivliyi, mədəni irsin qorunması, iqlim dəyişikliyinə qarşı mübarizə və dayanıqlı inkişaf məqsədləri üzrə fəaliyyət planları müzakirə olunur.

Qeyd edək ki, UNESCO-nun Baş Konfransının 43-cü sessiyası 14 noyabr tarixinədək davam edəcək.

# “Deneyap” texnologiya proqramının I Məzun Günü



## Kənan Kərimzadə Məzun Günündə iştirak edib



Oktyabrın 31-də “ASAN xidmət”in “Bilim Bakı” mərkəzində “Deneyap” texnologiya proqramının I Məzun Günü keçirilib.

Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün və elm və təhsil nazirinin müavini Kənan Kərimzadə təbrik nitqi ilə çıxış ediblər.

Ülvi Mehdiyev çıxışında qeyd edib ki, müasir texnologiyalar və innovasiyalar həyatın bütün sahələrinin ayrılmaz hissəsinə çevrilib. İstər iqtisadiyyatda, istər sosial və şəxsi həyatda, istərsə də dövlət idarəetməsində müasir texnologiyaların tətbiqi artıq zərurətə çevrilib. Süni intellekt hər şeydən öncə bir vasitədir. Əsas məqsəd isə bu texnologiyalardan istifadə etməklə vətəndaşların rifahına, inkişafına və qarşıya qoyulan hədəflərə nail olmaqdır.

Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün vurğulayıb ki, türk dünyası bu gün yeni bir intibah dövrünə qədəm qoyur. Onun sözlərinə görə, gənclərdə texnologiyaya, yeniliyə və yaradıcı düşüncəyə maraq oyadan “Bilim Bakı” mərkəzinin “Deneyap” laboratoriyaları da bu istiqamətdə mühüm rol oynayır.

Elm və təhsil nazirinin müavini Kənan Kərimzadə çıxışında bildirib ki, son 20 ildə dövlət proqramları çərçivəsində 3600-ə yaxın təhsil müəssisəsi ya yenidən tikilib, ya da əsaslı şəkildə bərpa olunub. Məktəblər rəqəmsal tədris resursları, kompüterlər və sürətli internetlə təmin edilir. Bu gün 1,5 milyon şagirddən 500 mini "Scratch" və "Python" kimi proqramlaşdırma dillərini öyrənir.

Kənan Kərimzadə əlavə edib ki, bu cür layihələr gənclərin gələcək əmək bazarına daha hazırlıqlı daxil olmasına imkan yaradır.

Tədbir çərçivəsində “Bilim Azərbaycan” layihəsinin rəhbəri Ahmet Köse “Deneyap” texnologiya proqramına dair hesabatla çıxış edib və layihənin fəaliyyətinə dair videoçarx nümayiş olunub.

Tədbirin sonunda proqramı uğurla başa vuran şagirdlərə məzun diplomları təqdim olunub.

# Azərbaycan və Belarus arasında hökumətlərarası komissiyanın 15-ci iclası keçirilib

## Elm və təhsil nazirinin müavini Firudin Qurbanov iclasda çıxış edib





Oktyabrın 28-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycan Respublikası və Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 15-ci iclasında iştirak edib.

Nazirlər Kabinetində keçirilən iclasda nazir müavini çıxış edərək Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında elm və təhsil sahəsində cari əməkdaşlıq istiqamətləri haqqında məlumat verib. Nazir müavini çıxışında qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi, birgə təhsil layihələrinin dəstəklənməsi və ali təhsil müəssisələri arasında akademik əlaqələrin dərinləşdirilməsi istiqamətində görülən işlər barədə də məlumat verib.

Hökumətlərarası Komissiyanın iclasında həmçinin iki ölkə arasında siyasi, iqtisadi, ticarət və sənaye, enerji, nəqliyyat və informasiya-kommunikasiya texnologiyaları, eləcə də mədəniyyət sahələrində əməkdaşlığın cari vəziyyəti və potensial imkanlar müzakirə edilib.

Sonda iclasın yekunlarına dair Protokol imzalanıb.

# TDT-nin Sənaye, Elm, Texnologiya və İnnovasiya Nazirlərinin 2-ci iclası keçirilib

## Elm və təhsil nazirinin müavini İdris İsayev iclasda iştirak edib



Oktyabrın 24-də Bakıda İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş Türk Dövlətləri Təşkilatının (TDT) Sənaye, Elm, Texnologiya və İnnovasiya Nazirlərinin 2-ci iclasında elm və təhsil nazirinin müavini İdris İsayev də iştirak edib.

İclasda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov TDT çərçivəsində sənaye, elm, texnologiya və innovasiya sahələrini əhatə edən yeni platformanın üzv ölkələr arasında tərəfdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Bildirilib ki, TDT-nin bu ilin oktyabrın əvvəlində Azərbaycanda keçirilmiş XII Zirvə Toplantısında qəbul edilmiş Qəbələ Bəyannaməsində də süni intellektin, yaşıl və rəqəmsal texnologiyaların sənaye strategiyalarına inteqrasiyasının təşviqi məsələləri əksini tapıb.

İclas zamanı, eyni zamanda, TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev, Türkiyə Respublikasının sənaye və texnologiya naziri Mehmet Fatih Kacır, Qırğız Respublikasının iqtisadiyyat və kommersiya naziri Bakıt Sıdıkov, Qazaxıstan Respublikasının sənaye və tikinti nazirinin müavini Raxımjan İssakulov, Özbəkistan Respublikasının Ali Təhsil, Elm və İnnovasiyalar Nazirliyinin İnnovativ İnkişaf Agentliyinin rəhbəri vəzifəsini icra edən Asror Norov, Macarıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Tamaş Torma çıxış ediblər. Məruzəçilər innovasiyaların təşviqi, texnoloji əməkdaşlıq, birgə layihələrin icrası və iqtisadi əlaqələrin daha da genişləndirilməsi istiqamətində fikirlərini ifadə ediblər.

İclasda TDT Sənaye, Elm, Texnologiya və İnnovasiya Nazirlərinin 1-ci iclası zamanı qəbul edilmiş Fəaliyyət Planı üzrə görülmüş işlər barədə məlumat verilib, irəli sürülən təşəbbüslər diqqətə çatdırılıb.

Sonda iclasın yekunlarına dair Bəyannamə qəbul edilib.

# Regionun elm və sənaye körpüsü - Mingəçevir Dövlət Universitetində gələcəyə baxış

Oktyabrın 24-də Mingəçevir Dövlət Universiteti (MDU) növbəti dəfə təhsillə istehsalat arasında strateji körpü rolunu təsdiqlədi. “HBN Group” və Azərbaycan-Türkiyə İş Adamları Birliyi (ATİB) ilə birgə təşkil olunan “Regional Universitet-Sənaye Birliyi Sammiti 2025” artıq regionun inkişaf modelinə çevrilib. Sammitin əsas tərəfdaşı kimi çıxış edən Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) və “Job in Global” şirkəti (gümüş sponsor) bu təşəbbüsün milli səviyyədə əhəmiyyətini daha da artırdı.

### “Regiondan qlobala”

MDU-nun rektoru dosent Anar Eminov sammitin mahiyyətini belə ifadə edib: “Bu platforma regionun təhsil, sənaye və innovasiya gücünü birləşdirən gələcəyə yönəlik birlikdir.”

Rektorun sözlərinə görə, “Regiondan qlobala” konsepsiyası Mingəçeviri elm və sənaye sintezinin innovativ mərkəzinə çevirməyi qarşıya məqsəd qoyur.

Sammit çərçivəsində 110 dövlət və özəl müəssisə tərəfindən 683 vakansiya və 787 təcrübə proqramı təqdim edilib, 90 startap layihəsi isə münsiflər heyəti tərəfindən qiymətləndirilib. Bu rəqəmlər MDU-nun əmək bazarına və innovasiya ekosisteminə verdiyi real töhfəni göstərir.

### Rəqəmsal iqtisadiyyatın təməl daşı - universitet-sənaye əməkdaşlığı

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov sammitin strateji əhəmiyyət daşıdığını vurğulayıb: “Belə tədbirlər regionun iqtisadi dinamizmini artırır, gənclərin karyera üfüqlərini genişləndirir”.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin şöbə müdiri Müjdət Həsənov isə universitetlərin sənayeyə yaxınlaşmasını təhsilin yeni mərhələsi kimi dəyərləndirib. O qeyd edib ki, tətbiqyönümlü bilik və bacarıqların artırılması yalnız belə platformalar vasitəsilə mümkündür.

“HBN Group”un icraçı direktoru Tariyel Dövlətov sammitin ideya müəlliflərindən biri kimi, layihənin təhsil-biznes əməkdaşlığının nəticəsi olduğunu söyləyib. ATİB sədri Mürsəl Rüstəmov isə tədbiri iki qardaş ölkə arasında iqtisadi və akademik əlaqələrin dərinləşməsinin simvolu kimi qiymətləndirib.

### Tərəfdaşlıqlar və yeni başlanğıclar

Sammit çərçivəsində MDU bir sıra nüfuzlu qurumlarla - Dövlət Məşğulluq Agentliyi (DMA), Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası, Azərbaycan HR İnstitutu, ASK və “Proqress” Təlim və Tədris Mərkəzi ilə əməkdaşlıq memorandumları imzalayıb. Bu sənədlər regional iqtisadi inkişafı, rəqəmsal bacarıqların artırılmasını və gənclərin məşğulluğunu hədəfləyən konkret layihələr üçün hüquqi zəmin yaradır.

DMA ilə birgə keçirilən Karyera Sərgisində 100-dən artıq şirkət fəaliyyət istiqamətlərini təqdim edib, tələbələrlə fərdi görüşlər keçirilib, gənclər öz bacarıqlarını sərgiləyiblər. Bu, həm də universitetin açıq əmək bazarına inteqrasiyasının göstəricisidir.

### Startap ekosistemi - regiondan doğan ideyalar

“UniStartup” müsabiqəsi çərçivəsində MDU və digər region universitetlərinin gəncləri 90-a yaxın innovativ layihə ilə çıxış ediblər. Bu ideyalar “SmartNation”, “HTEC-Invest”, Rəqəmsal İnkişaf Agentliyi və “Synergy Consulting” kimi qurumların ekspertləri tərəfindən dəyərləndirilib. Gənclərin enerjisi və yaradıcı baxış bu sammiti təkcə karyera deyil, həm də inkişaf laboratoriyasına çevirib.

Eyni zamanda, “Mutfakçı” şirkətinin rəhbəri İlkin Manafov və “Resource HUB” MMC-nin direktoru Gülnarə İsmayılova tərəfindən keçirilən master-klasslar gənclərin biznes və liderlik bacarıqlarının inkişafına yönəlib.

Sonra sammitin təşkilində fəallıq göstərənlər rektor Anar Eminov tərəfindən təşəkkürnamələrlə təltif edilib. Eyni zamanda, MDU-nun yeddi müəlliminə Cambridge TKT beynəlxalq sertifikatları təqdim olunub. Bu, universitetin akademik heyətinin beynəlxalq səviyyəyə inteqrasiyasının göstəricisidir.

Tədbirin sonunda “Zəfər sədası” uşaq xoru vətənpərvərlik motivli musiqilər ifa edib.

# “BilBacar” müsabiqəsi yenidən başlayır!




Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə keçirilən “BilBacar” müsabiqəsi yenidən başlayır.

Müsabiqə 2025/2026-cı tədris ilində 3 və 4-cü sinif şagirdlərini əhatə edəcək.

Müsabiqənin builki məqsədi ibtidai sinif şagirdlərində oxu savadlılığını artırmaq, mətnin məzmununu anlama, təhlil və nəticə çıxarma bacarıqlarını inkişaf etdirmək, oxu fəaliyyətlərini təşviq etmək, eyni zamanda şagirdlərə kompüter əsaslı qiymətləndirmə mühitində təcrübə qazandırmaqdır.

Müsabiqə tədris ili ərzində hər dəfə 29-38 sual olmaqla 4 mərhələdə keçiriləcək. Şagirdlərə yarışlara hazırlıq məqsədilə hər mərhələ öncəsi əlavə suallar da veriləcək.

Şagirdlər yarışda topladıqları ballara əsasən yer tutacaqlar və ən çox bal toplamış 450 şagird 2026-cı ilin iyun ayında final yarışında iştirak edəcək.

# Məktəbəqədər və ümumi təhsil üzrə ictimai dinləmə



Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə “Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın layihəsinin hazırlanması çərçivəsində məktəbəqədər və ümumi təhsil sahəsinə dair təkliflərin müzakirəsi məqsədilə ictimai dinləmə keçirilib.

Tədbirdə Elm və Təhsil Nazirliyinin struktur bölmələrinin rəhbərləri və əməkdaşları, məktəbəqədər və ümumi təhsil müəssisələrinin rəhbərləri, ali təhsil müəssisələrinin və tədqiqat mərkəzlərinin nümayəndələri, təhsil üzrə mütəxəssislər, ictimai təşkilatların, nazirlik yanında İctimai Şuranın üzvləri, pedaqoji mətbuatın və media qurumlarının təmsilçiləri iştirak ediblər.

İctimai dinləmənin məqsədi “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” çərçivəsində görülmüş işlərin nəticələrini müzakirə etmək və növbəti dövr üçün prioritet istiqamətləri müəyyənləşdirmək olub.

Tədbir çərçivəsində əvvəlcə məktəbəqədər və ümumi təhsil üzrə həyata keçirilən fəaliyyətlər, əldə olunan nəticələr və qarşıda duran hədəflər barədə təqdimat nümayiş etdirilib. Ardınca “Erkən yaş dövründə səmərəli təhsil modelinə əsaslanan məktəbəqədər təhsilin əhatə dairəsinin və keyfiyyətinin artırılması” və “Ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi” mövzularında müzakirələr aparılıb.

Müzakirələr zamanı məktəbəqədər təhsildə əhatəlilik, əlçatanlıq və inklüzivliyin artırılması, tədrisin məzmununun və pedaqoji potensialın gücləndirilməsi, eləcə də təhsil müəssisələrinin infrastrukturunun yenilənməsi məsələləri diqqət mərkəzində olub.

Ümumi təhsil istiqamətində aparılan müzakirələrdə tədrisin məzmununun müasir tələblərə uyğun yenilənməsi, müəllimlərin peşəkar inkişafının davamlı və sistemli şəkildə dəstəklənməsi məsələlərinə xüsusi diqqət yetirilib. Bununla yanaşı, tədris prosesində fərdiləşdirilmiş və inklüziv yanaşmaların tətbiqi, hər bir şagirdin potensialına və öyrənmə ehtiyaclarına uyğun təhsil mühitinin formalaşdırılması kimi prioritet istiqamətlər də vurğulanıb.

Tədbirdə həmçinin təhsil sistemində səmərəli idarəetmə və maliyyələşmə mexanizmlərinin tətbiqi, eləcə də rəqəmsal resurslara çıxış imkanlarının genişləndirilməsi ilə bağlı təkliflər səsləndirilib.

# Ali təhsilin əlçatanlığı və əhatəliliyi artırılıb

## Ali təhsil müəssisələrinə tələbə qəbulunun nəticələri uzun perspektivdə nələrə gətirib çıxaracaq?

Əvvəli səh. 1.

### Təhlillərin nəticələri növbəti tədris ili üzrə tələbə qəbulunun proqnozlaşdırılmasında nəzərə alınır

*Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman* ali təhsil müəssisələrinə tələbə qəbulunun nəticələri: bakalavriatura, magistratura və doktorantura səviyyələri üzrə qəbulun nəticələrinin statistik təhlilinin əhəmiyyətinə diqqət çəkib. Təhlillərin nəticələri növbəti tədris ili üzrə tələbə qəbulunun proqnozlaşdırılmasında nəzərə alınır.

Müzakirələrdə ali təhsil müəssisələrinə bakalavriatura, magistratura və doktorantura səviyyələri üzrə qəbulun nəticələrinin statistik təhlili təqdim edilib.

### Təhlillər nə deyir?

*Elm, ali və peşə təhsili şöbəsinin aparıcı məsləhətçisi Ülvi İsmayılov* təqdimatla çıxış edərək ixtisas təsnifatında dəyişikliklərə diqqət çəkib. O, əmək bazarında aktuallığını itirən bir çox ixtisasın təsnifatdan çıxarıldığını, bəzi ixtisasların ixtisas qrupunun dəyişdiyini, dövrün tələbinə uyğun olaraq yeni ixtisasların təsnifata salındığını qeyd edib. Beləliklə, bakalavriat səviyyəsi üzrə müəyyən olunan 153 ixtisasdan 7-si tamamilə yeni ixtisas olub. 2025-2026-cı tədris ilində həmin ixtisaslardan bir neçəsində tələbə qəbulu planlaşdırılıb. Daha öncə əsas (baza ali) tibb təhsili səviyyəsində olan “İctimai səhiyyə” ixtisası bu təhsil səviyyəsindən çıxarılaraq  bakalavriat səviyyəsinin səhiyyə ixtisasları qrupuna daxil edilib”.

### İxtisasları Nazirlər Kabineti, ixtisaslaşmaları Elm və Təhsil Nazirliyi müəyyən edib təsdiqləyir

Ü.İsmayılov bildirib ki, köklü dəyişikliklər magistratura səviyyəsində baş verib. Aktuallığını itirən təxminən 40-a yaxın ixtisas yeni redaksiyada verilib və ya tamamilə təsnifatdan çıxarılıb. 20 yeni ixtisas təsnifata daxil edilib. Ümumilikdə 129 ixtisas altında 928 ixtisaslaşma müəyyən edilib.

O qeyd edib ki, indiyədək ixtisaslar və ixtisaslaşmalar Nazirlər Kabineti tərəfindən təsdiq olunub. Artıq yeni təsnifatda ixtisasları Nazirlər Kabineti, ixtisaslaşmaları isə Elm və Təhsil Nazirliyi təsdiqləyir.



Rezidentura səviyyəsində 44 ixtisas müəyyən olunub. Onlardan 8-i yeni ixtisasdır.

Ülvi İsmayılov 2025-2026-cı tədris ilinin statistik göstəricilərindən danışarkən deyib ki, bakalavriat və əsas (baza ali) tibb təhsili səviyyəsi üzrə 63025 tələbə qəbulu yeri planlaşdırılıb. Həmin yerlərin 48 faizinə, yəni 29962 yerə qəbul dövlət sifarişi əsasında aparılıb: “Ümumilikdə sosial qrupa aid olanları və xüsusi təyinatlı təhsil müəssisələrini nəzərə alanda deyə bilərik ki, hər 2 tələbədən biri dövlət hesabına təhsil alır”.

### Son 4 ildə qəbul yerləri 17, dövlət sifarişli yerlər isə 22 faiz artıb

Ülvi İsmayılov bakalavriat səviyyəsində ayrı-ayrı ixtisaslar üzrə son 4 ildə həm qəbul yerlərinin sayında, həm də dövlət sifarişli yerlərin sayında müsbət dinamika müşahidə olunduğunu deyib: “Son 4 ildə qəbul yerləri 17 faiz, dövlət sifarişli yerlər isə 22 faiz artıb. Ali təhsil müəssisələrinə tələbə qəbulunun nəticələri müəssisələr və ixtisas qrupları üzrə fərqli olsa da, ümumilikdə faktiki qəbulun nəticələri göstərib ki, plan yerləri 97 faiz dolub”.

Nazirlik əməkdaşı bakalavriat səviyyəsində ən çox ixtisasın texniki və texnoloji ixtisas qrupunda formalaşdığını qeyd edib: “Bu qrupda bakalavriat səviyyəsi üzrə 45 ixtisas müəyyən olunub. Qəbul planının 24 faizi məhz bu ixtisas qrupunun payına düşüb. Dövlət sifarişli yerlərin payı da burada yüksək həddədir. 29962 dövlət sifarişli yerin təxminən 40 faizi bu ixtisas qrupunun payına düşüb. Sözügedən qrupda faktiki qəbul 94 faiz təşkil edib”.

Eyni zamanda digər ixtisas qrupları üzrə də statistik nəticələri diqqətə çatdıran Ülvi İsmayılov, xüsusilə bəzi ixtisas qruplarında tələbə qəbulu planlaşdırılan zaman optimallaşdırma proseslərinin həyata keçirildiyinə diqqət çəkib. Onun sözlərinə görə, təhsil ixtisasları qrupunda son illərdə bir çox optimallaşdırılma prosesi həyata keçirilib. Müəllimlərin işə qəbulu imtahanlarının nəticələri, ümumi təhsil müəssisələrində mövcud vakansiyalar nəzərə alınmaqla xüsusilə humanitar yönümlü müəllimlik ixtisaslarında qəbul yerlərinin sayı azaldılıb: “Son illərdə müəllimlik ixtisaslarında qəbul yerlərinin sayı təxminən 15 faiz, bəzi ixtisaslar üzrə hətta 30 faizdən çox azaldılıb. Bu daha çox “Azərbaycan dili və ədəbiyyat müəllimliyi”, “İbtidai sinif müəllimliyi”, “Tarix müəllimliyi”, “Xarici dil müəllimliyi” və “Məktəbəqədər təhsil” ixtisaslarında olub”.

Texnika və texnoloji ixtisaslar qrupuna aid olan bir çox ixtisasların aid olduğu sahələr üzrə dövlətin bir çox strateji sənədlərində konkret hədəflər müəyyən olunub. Bu səbəbdən son illərdə qəbul planlarında da, dövlət sifarişli yerlərin sayında da müsbət dinamika müşhidə olunub.

Kəmiyyətlə yanaşı, keyfiyyət baxımından da optimallaşdırılma müşahidə olunduğunu vurğulayan Ü.İsmayılov xüsusilə “Mühəndislik” ixtisasında qiyabi təhsil alma formasında tələbə qəbulunun 2 ildir planlaşdırılmadığına diqqət çəkib. O, əsas (baza ali) tibb təhsili səviyyəsi və bakalavriat səviyyəsinin səhiyyə ixtisasları qrupunda qəbul yerlərinin hamsının yalnız dövlət sifarişi əsasında planlaşdırıldığını və bütün yerlərin dolduğunu bildirib.

### Magistratura səviyyəsində 82 faiz faktiki qəbul qeydə alınıb

2025-2026-cı tədris ili üzrə magistratura səviyyəsində 17558 qəbul yerlərinin 40 faizi, yəni 7094 yer dövlət sifarişi əsasında planlaşdırılıb və planlanan qəbul yerlərinin  82 faizi dolub.

Rezidentura səviyyəsi üzrə 2025-2026-cı tədris ilində bütün yerlər dövlət sifarişi əsasında nəzərdə tutulub. Faktiki qəbul 75 faiz təşkil edib.

Doktoranturada da bir çox optimallaşdırma tədbirləri həyata keçirilib. Ümumilikdə 1177 tələbə qəbulu planlaşdırılıb. 753 nəfər qəbul olunub. Onların 64 faizi ali təhsil, 36 faizi elmi müəssisələrə qəbul olub.

### “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda qoyulan hədəflərə nail olunub

Ülvi İsmayılov əlavə edib ki, ali təhsildə qoyulan hədəfə nail olunub: ““Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda ali təhsilin əlçatanlığının və əhatəliliyinin, o cümlədən dövlət sifarişli yerlərinin sayının artırılması və dövrün sonunda ali təhsil müəssisələrinə qəbul olanların sayının 75 min nəfərə çatdırılması hədəf olaraq müəyyən edilib. Biz deyə bilərik ki, artıq ali təhsil müəssisələrinə qəbulda 75 min nəfərin qəbul olunması ilə bağlı hədəfə çatmışıq”.

### Yaşlanma problemi: elmi kadrların 63 faizi 50 yaşından yuxarı olanlardır

*Elm, ali və peşə təhsili şöbəsinin aparıcı mütəxəssisi İlkin Məmmədovun* ali təhsil müəssisələrində elm istiqaməti üzrə təqdim etdiyi təhlillərdə ölkədə 38 ali təhsil müəssisəsindən daxil olan və həmçinin beynəlxalq elmi bazaların açıq məlumatlarına istinad olunub. Kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə aparılan bu təhlillər 2 əsas istiqaməti əhatə edib. Ali təhsil müəssisələrinin fəaliyyətinin 2 əsas sütunu - elmi kadr potensialı və elmi məhsuldarlıq göstəriciləri təhlil edilib. Ali təhsil müəssisələrində çalışanların elmi dərəcələri, yaşı təhlil edilib. Məlum olub ki, elmi dərəcə tələbinə baxmayaraq, ali təhsil müəssisələrində elmi dərəcəsi olmayan kifayət qədər kadr çalışır. Ali təhsil müəssisələrində çalışanların 37 faizi 50 yaşdan aşağı yaş kateqoriyasında olanlar, böyük əksəriyyəti, 63 faizi 50 yaşından yuxarı olanlardır: “Buradan belə bir nəticə çıxarmaq olar ki, ali təhsil müəssisələrində elmi-pedaqoji kadrlarla bağlı yaşlanma problemi var. Bu, ali təhsil müəssisələrinin diqqət etməli olduğu məsələlərdən biridir”.



Elmi məhsuldarlıq göstəriciləri daha geniş məfhum olduğundan təhlillərdə elmi nəşrlər əsas götürülüb. Burada isə xüsusilə “Scopus” elmmetrik bazasının məlumatlarından istifadə edilib. Son 3 ilin nəticələri göstərib ki, bu sahədə müsbət dinamika müşahidə olunub. 2024-cü ildə nəşr sayı 2022-ci illə müqayisədə 2 dəfədən çox artaraq 2087-dən 5251-ə çatıb. Eyni zamanda elmmetrik bazadan əldə olunan məlumatlara əsasən Q1 və Q2 kateqoriyalı nəşrlərdə də 2022-2024-cü illərdə müsbət dinamika müşahidə olunub və bu kateqoriyalı nəşrlərin ümumi nəşrlərin içərisindəki payı davamlı olaraq artıb. Müvafiq kateqoriya üzrə nəşrlərin payı 2024-cü ildə 55 faiz təşkil edib.

### Doktorantura səviyyəsində daha doğru və real tələbə qəbulu planı ortaya çıxacaq

*Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman* “Azərbaycan müəllimi”nə müsahibəsində müzakirələrin nəticələrindən danışıb: “İlkin proqnoz layihələri hazırlanmadan öncə müzakirələr zəruridir. Bu tədbirdə məqsəd ali təhsil müəssisələrinə proqnozlaşdırılan tələbə qəbulu layihələrinin hazırlanmasına hazırlıq xarakteri daşıyır. Məqsəd ali təhsil müəssisələrinin növbəti tədris ili üçün tələbə qəbulu proqnozlaşdırılmasında düzgün və məqsədəuyğun layihələr təqdim edilməsidir”.

Şöbə müdiri keçən il keçirilən tədbirin müsbət təsiri olduğunu vurğulayıb: “Ötən il keçirilən müzakirələr hesabatlarda effektiv oldu. Əvvəlcədən ali təhsil müəssisələrinə verilmiş təlimat əsasında qəbul planının formalaşdırılmasının şahidi olduq. Düşünürük ki, bu davam etdirilməlidir”.

Bu il həm də elmi hesabatların təhlili aparılıb: “Elmi müəssisələrdən nazirliyə təqdim edilən elmi hesabatları da təhlil etmişik. Təhlillər əsasında ilkin hesabat hazırlayıb təqdim etdik. Doktorantura səviyyəsində daha doğru və real tələbə qəbulu planlarının ortaya çıxacağına ümid edirik”.

**Ruhiyyə DAŞSALAHLI**



Andreas ŞLEYXER

# Ali təhsildə imkan bərabərsizliyini necə aradan qaldırmaq olar?

Əvvəli səh. 1.

### İmkan bərabərsizliyi iqtisadi və sosial mobilliyə ciddi zərbə vurur

Məlumatlar göstərir ki, bir çox OECD ölkələrinin təhsil sistemlərinin mərkəzində imkan bərabərsizliyi dayanır. Valideynləri ali təhsilli olan bir gəncin ali təhsil diplomu əldə etmə ehtimalı, orta hesabla, valideynləri orta məktəbi belə bitirməmiş bir gəncə nisbətən təxminən üç dəfə çoxdur. Bu fenomen sadəcə ailədən gələn bir təsadüf deyil, sosial və iqtisadi bərabərsizliyi gücləndirən dərin qurumsal strukturların nəticəsidir. Bəzi ölkələrdə vəziyyət daha acınacaqlıdır: valideynləri məktəbi bitirməmiş gənclərin cəmi 3%-i ali təhsil ala bilir. Bu isə o deməkdir ki, ali təhsilli valideynlərin övladları ilə müqayisədə onların məzun olma ehtimalı 21 dəfə azdır.

Bu imkan bərabərsizliyi iqtisadi və sosial mobilliyə ciddi zərbə vurur. Lakin bəzi ölkələr bunun qaçılmaz olmadığını və hətta dəyişdirilə biləcəyini sübut edir. Danimarka, İngiltərə və Belçikanın Flaman icması məqsədyönlü tədbirlər vasitəsilə ali təhsil əldə etmə fərqini azalda biliblər. Məsələn, Danimarka siyasətçiləri təhsil və karyera istiqamətində konsaltinq xidmətlərinə xüsusi diqqət yetirib və ənənəvi akademik göstəricilərə əsasən potensialı nəzərdən qaçan namizədlər üçün alternativ qəbul yolları təklif ediblər.

### Uşaq bağçası haqqı universitet ödənişlərindən çoxdur

OECD təhsil bərabərsizliyi ilə mübarizə üçün bir sıra siyasət tədbirləri tövsiyə edir. Körpələr evi və uşaq bağçasına davamiyyət ilk baxışda universitet təhsili ilə əlaqəsiz görünsə də, keyfiyyətli erkən uşaqlıq təhsilinə bərabər çıxış həlledici əhəmiyyət daşıyır. Araşdırmalara görə, güclü erkən təhsil sisteminə üstünlük verən ölkələrdə həm akademik nəticələr, həm də sosial ədalət göstəriciləri daha yüksək olur. Buna baxmayaraq, bir çox ölkədə bu sahəyə dövlət xərcləri azdır və bəzi yerlərdə ailələrin özəl töhfələri olduqca yüksəkdir. Hətta bəzi ölkələrdə uşaq bağçası haqqı universitet ödənişlərindən çoxdur, bu isə sosial ədalət baxımından uğursuz reseptdir.

### Bərabər təhsil imkanlarına çıxış həyati əhəmiyyət kəsb edir

Uşaqlar böyüdükcə, bərabər təhsil imkanlarına çıxış yenə də həyati əhəmiyyət kəsb edir. OECD-nin PISA tədqiqatının məlumatları göstərir ki, imtiyazlı 15 yaşlı şagirdlər bütün ölkə və iqtisadiyyatlarda imkansız yaşıdlarından daha yaxşı nəticə göstərirlər. Bəzi yerlərdə sosial-iqtisadi status akademik nəticələrin 20%-dən çox fərqini izah edir. Bu isə göstərir ki, təhsil siyasəti ya bərabərsizliyi dərinləşdirə, ya da azalda bilər. Əgər aztəminatlı məktəblərə çatışmazlıqlarını kompensasiya edəcək qədər resurs ayrılmasa, məktəblər arasında sosial və akademik təcrid artacaq və nəticədə fərqlər daha da dərinləşəcək.

Siyasətçilər həmçinin ali təhsilə daxilolmanın daha inklüziv və müxtəlif yollarını təşviq etməlidirlər. Məsələn, peşə təhsili alan tələbələr, çox vaxt imkansız təbəqələrdən olanlar üçün xüsusi ali proqramlar yaratmaq olar. Bu, ənənəvi universitet qəbul qaydalarının tez-tez diqqətdən kənarda qoyduğu bu qrup üçün fürsətləri artırar. Universitet proqramları çox vaxt nəzəriyyəyə əsaslandığı üçün bu tələbələrin gətirdiyi praktiki təcrübə ilə uyğunlaşmır.

Bundan əlavə, ali təhsil tələbələri üçün məqsədyönlü maliyyə dəstəyi genişləndirilə bilər. Məsələn, təhsil haqları yüksək olan ölkələrdə gəlirə bağlı kreditlər tətbiq edilə bilər, məzunlar təhsillərini gələcək qazanc səviyyələrinə uyğun şəkildə ödəyə bilərlər. Qrantlar və təqaüdlər isə həm təhsil, həm də yaşayış xərclərini qarşılamağa kömək edir. Belə tədbirlər tələbələrin təhsil alarkən maddi risklərini azaldır və onların işlə təminat tapmaq əvəzinə oxumağa fokuslanmalarına şərait yaradır.

Lakin sadəcə universitetlərə daxilolmanı asanlaşdırmaq kifayət deyil, təhsili uğurla başa vurmaq da əsas problemdir. 30-dan çox OECD və tərəfdaş ölkələrdə aparılan məlumatlar göstərir ki, bakalavr tələbələrinin cəmi 44%-i universitet proqramlarını vaxtında bitirir. Kişilərin göstəricisi qadınlara nisbətən 14 faiz aşağıdır. OECD bu problemi həll etmək üçün məqsədyönlü akademik və karyera bələdçiliyi, həmçinin qısa kurslar təklif edir ki, bu da planlaşdırmanı, kredit yığımını və tələbə fəallığını artırır. Bundan əlavə, tələbələrə göstərilən dəstək onlarda ali məktəbə mənsubiyyət hissini gücləndirir ki, bu da davamiyyət üçün vacibdir.

### İbtidai təhsilin əsas bacarıqların formalaşmasında rolu

Bütün bunlara baxmayaraq, bir çox məzun əsas bacarıqlardan məhrumdur. Məsələn, oxu bacarığında ali təhsilli yetkin insanların 13%-i OECD testlərində yalnız 1-ci səviyyə və ya daha aşağı nəticə göstərir, yəni sadəcə qısa və tanış mövzularda mətnləri anlaya bilir. Bu, təhsil sistemlərinin bütün mərhələlərinin səmərəliliyini sual altına alır. Əgər insanlar universitetləri əsas bilikləri mənimsəmədən tərk edirlərsə, bu, sistemin daha erkən mərhələlərindəki boşluqlara işarə edir. Deməli, ibtidai və orta məktəblər əsas bacarıqları formalaşdıra bilmədikdə, ali təhsil bu problemləri təkbaşına həll edə bilməz. Bu da erkən müdaxilənin və uşaqlıq, yeniyetməlik dövrlərində məqsədyönlü dəstəyin vacibliyini vurğulayır.

### İmkansız tələbələr uğur qazandıqda, cəmiyyət fayda görür

Ali təhsilin genişlənməsi həm fərdlərə, həm də cəmiyyətlərə böyük fayda gətirib. Lakin indi əsas məqsəd bu faydaların hamı arasında ədalətli şəkildə bölüşdürülməsini təmin etməkdir. Aztəminatlı təbəqələrdən olan bir çox insan artıq ali təhsil alaraq daha yaxşı işlər tapır, bu isə öz növbəsində bacarıqlı və rəqabətədavamlı işçi qüvvəsinin formalaşmasına, iqtisadi artıma və sosial bərabərsizliyin azalmasına xidmət edir. Amma hələ də kifayət qədər aztəminatlı gənc öz potensialına uyğun təhsil almaq imkanından məhrumdur. Mesaj aydındır: imkansız tələbələr uğur qazandıqda, cəmiyyət bütövlükdə fayda görür.

Siyasətçilər bərabərsizliyi aradan qaldırmaq üçün daha fəal addımlar atmalı və aşağı sosial-iqtisadi təbəqələrdən gələn uşaqların üzləşdiyi çətinlikləri azaltmalıdır ki, təhsilin gətirdiyi faydalardan hamı bərabər şəkildə yararlana bilsin.

**Oruc MUSTAFAYEV**

## Yeni nəşrlər




Bu günlərdə müstəqil Azərbaycanın ali təhsil müəssisələrinin çoxdan səbirsizliklə gözlədiyi dəyərli layihə- Azərbaycan Dillər Universitetinin (ADU) Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Jalə Qəribovanın "Sosiolinqvistika" adlı dərsliyi akademik Kamal Abdullayevin ümumi redaktəsi və ADU-nun Elmi Şurasının qərarı ilə nəfis şəkildə işıq üzü görüb *(Jalə Qəribova. Sosiolinqvistika. Ali məktəblər üçün dərslik. Bakı; SimSim nəşriyyatı, 2025, 384 səh.)*. Bununla da ölkəmizin ali təhsil müəssisələrinin filoloji istiqamətli ixtisaslarında təhsil alan bakalavr, magistr və doktorantlar üçün nəzərdə tutulan milli və beynəlxalq təcrübəyə əsaslanan, eləcə də Qərb standartlarına cavab verən Azərbaycan dilində fundamental və tədqiqatyönümlü ilk "dərslik" statuslu tədris resursu elm və təhsil ictimaiyyətinin diqqətinə təqdim olunub. Dərsliyin annotasiyasında deyildiyi kimi, onun əsas hədəflərindən biri də "Azərbaycanda sosiolinqvistika sahəsində gələcək araşdırmalar üçün nəzəri baza formalaşdırmaq və sosiolinqvistik tədqiqatların inkişafına dəstək olmaqdır...".

# Dilçilik elminə dəyərli töhfə

Bu baxımdan müəllifin "Sosiolinqvistika" dərsliyi "ənənəvi dərslik modeli"nin çərçivəsindən çıxaraq daha geniş elmi problemləri əhatə etməklə, təhsilalanları gələcək tədqiqatlara yönəldən, qloballaşan dünyanın çağırışlarına cavab verən, dünyanın dil mənzərəsi və situasiyasına, dil siyasəti və planlaşdırılmasına, dil ekologiyası və təhlükəsizliyinə yeni baxış və yanaşmalar gətirən, nəhayət, ölkəmizdə elm və təhsilin inkişafı strategiyasında təsbit olunan hədəflərdən olan "tədqiqat universiteti" modelinə keçidin əsas komponentlərindən sayılan tədqiqatyönümlü tədris resurslarından biri kimi yüksək qiymətə layiqdir.

Təqdirəlayiq haldır ki, müəllif bu dəyərli dərsliyi iki böyük dilçi alimin - azərbaycanlı professor Vaqif Aslanovun (1928-2001) və amerikalı professor Coşua Fişmənin (1926-2015) əziz xatirələrinə ithaf edib. Bu alimlərdən biri müəllifin fəlsəfə doktorluğu dissertasiyasının elmi rəhbəri kimi onu gələcəkdə sosiolinqvistika sahəsində araşdırmalara təşviq edib, digəri isə müəllif ABŞ Dövlət Departamentinin Fulbrayt Proqramı xətti ilə uzunmüddətli elmi səfəri zamanı yaxından tanış olmuş, onun elmi mühazirələrini dinləmiş, nəhayət, bu dərsliyin hazırlanmasında onun zəngin elmi irsindən faydalanıb. Məhz bu səbəblərdən müəllif hər iki alimə minnətdarlığını bildirməyi özünün mənəvi borcu sayıb...

Müəllif eyni zamanda Vətənimizdə sosiolinqvistika sahəsində ilk örnəklərdən olan professor Əbülfəz Rəcəblinin "Sosiolinqvistika" (Bakı, 2004) və professor Fəxrəddin Veysəllinin "Sosiodilçilik" (Bakı, 2022) kitablarını da faydalı vəsait kimi dəyərləndirməyi unutmayib...

Hesab edirik ki, elmdə özündən əvvəlki araşdırmalara, faydalandığı tədqiqatçılara qədirbilənliklə, onu bu sahəyə yönləndirən "yol göstərənlərə", nəhayət elmi irsi və mühazirələrindən öyrəndiyi alim-müəllimlərə belə həssas yanaşma elmdə az-az rast gəlinən hadisələrdəndir.

"Sosiolinqvistika" dərsliyinin müəllifinin bu cür məsələlərə həssaslıqla yanaşması onun yüksək ziyalılığının və alim-müəllif mədəniyyətinin parlaq təzahürü kimi qiymətləndirilməlidir.

Ədalət naminə deməliyik ki, bu dərsliklə ilkin tanışlıq göstərir ki, müəllif, həqiqətən, Azərbaycan dilçiliyində ilk dəfə orijinal tədris resursu yaratmağa nail olub. Ana Vətəni ABŞ sayılan sosiolinqvistikaya yeni yanaşma sərgiləyən, qloballaşan dünyanın yeni çağırışlarına dolğun cavab verən, dilçilik elminin mühüm interdisiplinar sahələrindən sayılan sosial dilçiliyin ən son nailiyyətlərinə əsaslanan tədqiqatyönümlü dərslik ortaya qoyub. Mətləb aydınlığı üçün dərsliyin əsas məziyyətlərinə toxunmaq, orijinallığı ilə diqqət çəkən, üstün məzmun və keyfiyyətləri ilə seçilən, Vətənimizdə sosiolinqvistika sahəsində gələcəkdə aparılacaq araşdırmalara işıq tutan, yol göstərən bəzi konseptual məqamlara aydınlıq gətirmək istərdik.

Dərslik quruluşca "Ön söz", 16 fəsil və 84 paraqrafdan, eləcə də 337 adda istifadə olunmuş ədəbiyyat siyahısını əhatə edən fundamental, sistemli araşdırma nəticəsi olaraq təhsilverənləri və təhsilalanları gələcəkdə bu yöndə tədqiqat aparmağa təşviq edən, "yol xəritəsi" missiyalı tədris resursu kimi diqqəti cəlb edir. Sözsüz, bu kiçik yazıda dərslikdə sosiolinqvistikaya həsr olunan bütün məzmun xətlərinə toxunmaq fikrindən uzağıq; burada, əsasən, interdisiplinar elm sahəsi kimi sosiolinqvistikanın günümüz üçün aktual sayılan problemlərinə münasibət bildirməklə, dərslikdən aldığımız elmi təəssüratı hörmətli oxucularla bölüşməyi məqsədəuyğun hesab edirik.

Dərsliyin "Sosiolinqvistika fənninə giriş" adlanan I fəsli bütövlükdə nəzəri planda işlənmiş, fənnin obyekti, təşəkkülü, inkişafı və formalaşması tarixini şərtləndirən amillər, dilin struktur və funksional aspektlərinin qarşılıqlı əlaqələri, sosiolinqvistikanın terminoloji baza və kateqoriyaları sosiolinqvistika dünən, bugün və sabah kontekstində bu vacib elm sahəsinin gələcək problemləri elmi-nəzəri aspektdə təqdim olunub.

Dərsliyin "Dil və milli kimlik" adlanan və 6 paraqrafı əhatə edən V fəsli çağdaş dünyada baş verən qloballaşma nəticəsində ən çox mənfi təsirlərə məruz qalan dil və mədəniyyətin aşınması problemi, ən başlıcası isə milli kimliyin pasportu, milli varlığın simvolu (simgəsi) sayılan dilin zamanla itirilməsi və dil kodunun dəyişməsi (ana dilindən digər dilə keçilməsi) məsələlərinin təhlilinə həsr olunub. Müəllifin milli kimlik məsələsində gəldiyi qənaət belədir ki, "Milli kimlik hər zaman etnik kimliyə əsaslanmır. Millət etnosları və etnik qrupların fövqündə duran üst kimlik paradiqmasıdır" (s. 116). Bu prosesdə dil ən aparıcı amil kimi çıxış edir. Milli kimlik bu mənada millətin milli özünüdərkinin təməl ünsürü kimi çıxış edir və milli iftixar mənbəyinə, milli mənlik şüurunun oyanışına xidmət edir. Burada görkəmli türk alimi A.Timurtaşın bir müdrik kəlamı yada düşür: "Dil - bayraq kimi, dövlət kimi müqqədəslərdəndir. Dil olmayınca millət olmaz, millət olmayınca dövlət olmaz, dövlət olmayınca bayraq olmaz. Bu anlamda millətin ilk ünsürü dildir...".

İftixar etməli haldır ki, dərsliyin müəllifi milli kimliyin atributu olan dilin milli kimlikdə oynadığı üstün rolu qeyd etdiyimiz konseptual məzmununda təhlil etməklə milli varlığımızın - ana dilimizin qorunmasının həyati zərurət olduğunu müasir gəncliyə gərəyincə çatdıra bilib. Çünki dünya təcrübəsi göstərir ki, öz ana dilini sevməyib yabançı dillərdə təhsilə meyl edən xalqlar zaman-zaman əcnəbilər tərəfindən də "yaddilli xalq" kimi təqdim edilirlər...

İbrətamiz haldır ki, bu mənada dərsliyin "Dil və kimlik" fəslinin sonunda "Müzakirə" üçün verilən 14-cü tapşırıqda Uilyam Fiermanın "Post-sovet Qazaxıstanında dil və təhsil: şəhər məktəblərində qazaxdili tədris" məqaləsindən verilən parçada həmin ölkədə sovet dönəmində rusdilliliyə keçidin törətdiyi müasir fəsadların milli kimlik aspektində təhlil edilməsi tələbələrdən tələb olunur, bu hallara imkan verərək milli kimliyə zərbə vurulmasının yolverilməzliyi tövsiyə olunur...

Dərslikdə Azərbaycan dilçiliyində ilk dəfə təhsilin məzmununa gətirilən mövzulardan biri də "Dil ekologiyası: dil çeşidliliyinin qorunması və dil keçidinin önlənməsi" adlanan 13-cü fəsil sayıla bilər. Mövcud tədris ədəbiyyatlarından fərqli olaraq J.Qəribova bu məsələdə yeni yanaşma tətbiq edərək məsələnin qoyuluşunu ön plana çəkmiş, "dilin ekologiyası nədir?" sualına tam cavab vermiş, dil çeşidliliyi (müxtəlifliliyi), "dil ölümü"nə səbəb olan amillər, dilin təhlükədə olma səviyyələri, dil keçidinin önlənməsi (dil icmasının ana dilini başqa bir dominat dillə əvəzləməsinin qarşısının alınması), dil təhlükəsizliyinin mərhələləri və s. bu kimi problemləri qloballaşmanın neqativ nəticəsi kimi təhlil və təqdim etmişdir. Bu bölmədə ən çox maraq doğuran məsələlərdən biri kimi dillərin təhlükəsizliyinin qorunması sahəsində beynəlxalq qurumların qəbul etdiyi normativ aktlara (beynəlxalq konvensiya və xartiyalar) uyğun olaraq təhlükədə olan dillərin "Qırmızı kitabı"nın hazırlanması, ümumiyyətlə, azlıqda və təhlükədə olan dillərin qorunmasına müəllifin bir vətəndaş harayını da duymamaq mümkün deyil.

Dərsliyin məziyyətlərindən biri də dilçiliyimizdə ilk dəfə "Sosiolinqvistikanın tədqiqat metodları" (s. 304-358) və hər fəslin sonunda təhsilalanlar üçün "Müzakirə" başlıqlı araşdırma, öyrənmə xarakterli sual və tapşırıqların verilməsi sayila bilər. Bütövlükdə bu dərslikdə təqdim olunan mövzuların tədrisinə yeni yanaşma üsulları və araşdırma metodları beynəlxalq təcrübə əsasında, ancaq müxtəlif ölkələrin dil situasiyalarından gətirilən zəngin örnəklər vasitəsilə təqdim olunub. Bütün bunlar müəllif peşəkarlığının, alim səriştəsinin nəticəsi kimi dəyərləndirilməlidir.

Dərslikdə sosiolinqvistikanın aktual problemlərindən olan dil variantlılığı, sosial və regional dillər, dünyanın dil mənzərəsi, marginal (yardımçı) dillər, süni dillər, dil və təfəkkür, dil siyasəti və dil planlaşdırılması, dil siyasətində iki və çox dillilik kimi digər məsələlər qloballaşan dünyanın dil çağırışlarına uyğun təhlil və təqdim olunub.

J.Qəribovanın dərsliyində dünyanın dil mənzərəsi və dil siyasəti fonunda "Azərbaycan Respublikasının dil siyasətində çoxdillilik" bölməsi də (s. 283-293) istər təhlil dərinliyi, istərsə də hüquqi-normativ aktlar və beynəlxalq təcrübəyə əsaslanan dövlətçilik düşüncəsi, yanaşmaları ilə seçilir. Maraqlı məqamlardan biri Azərbaycanda dil çeşidliliyi və mədəniyyət müxtəlifliyini "tədqiq edən" Qərb alimlərinin ölkəmizdə guya "təhlükədə olan dillər"lə bağlı birtərəfli mövqelərinə etiraz edən müəllif Vətənimizdə multikulturalizmin həyat normasına çevrildiyini, azsaylı xalqların dil və mədəniyyətinin dövlət səviyyəsində, Konstitusiya çərçivəsində qorunduğunu qətiyyətlə müdafiə edir. Bununla bağlı deməliyik ki, Azərbaycan qədimdən çoxmillətli, çoxkonfessiyalı, unikal bir diyardır. Hələ Azərbaycanşünaslıqda bu regionda ölü dilə təsadüf edilməyib... Dərslikdə Azərbaycanda dil siyasəti və dil quruculuğu məsələləri də lazımi səviyyədə işıqlandırılıb.

"Sosiolinqvistika" dərsliyində istifadə olunan mənbə və elmi ədəbiyyatların tam əksəriyyətini ingilisdilli ədəbiyyat təşkil edir. Müəllifin ingilis dili mütəxəssisi olması, sosiolinqvistika və etnolinqvistika sahəsində dünyada mövcud olan ingilisdilli ədəbiyyatlara əlçatanlığı sayəsində sanballı bir dərslik yaranıb.

Dərsliyin dili anlaşıqlı, üslubu aydın olsa da, oradakı terminlərin çoxluğu təhsilalanlarda, şübhəsiz, müəyyən çətinliklər yarada bilər. Bu baxımdan fizika üzrə Nobel mükafatı laureatı Pyotr Kapitsanın oğlu professor Sergey Kapitsanın bir məşhur kəlamını xatırlatmaq yerinə düşərdi: "Biz tələbələrdən nəyi tələb etməliyik - biliyi, yoxsa anlamağı. Bütün sistem anlamağı bacaran insanların təhsili və tərbiyəsi üzərində qurulmalıdır... Təhsil anlamaqdır, bilik isə sənətdir...".

Başqa sözlə, bilik o zaman elmə çevrilir ki, o, təhsilalan tərəfindən anlaşılsın, şüurlu şəkildə dərk olunsun...

Bu mənada hesab edirik ki, sosiolinqvistika fənlərarası (interdisiplinar) elm sahəsi olduğu üçün tələbələr, magistrlər, doktorantlar bu dərslikdə çoxsaylı elmi termin və anlayışlarla üzləşəcəklər. İstəyimiz odur ki, dərsliyin gələcək nəşrlərində müəllif bu sanballı kitaba "Sosiolinqvistikanın terminolojı aparatı" bölməsini hazırlayib mətnə əlavə etməklə onun təhsilalanlar tərəfindən anlaşıqlılıq səviyyəsi və dərəcəsinin yüksədilməsinə xüsusi töhfə verəydi...

Azərbaycanın tanınmış dilçi alimi dosent Jalə Qəribovanın çoxillik elmi axtarışları və elmi-pedaqoji fəaliyyətinin bəhrəsi olan "Sosiolinqvistika" dərsliyi təkcə dilçilik elminə deyil, həm də ali təhsil sisteminə dəyərli töhfədir.

Əminik ki, bu dəyərli dərslik təhsilalan tələbələrin, magistrlərin, doktorantların, eləcə də bu sahə ilə məşğul olan elmi işçilərin stolüstü kitabı olacaqdır.

**Əsgər QULİYEV,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

# Mənim unudulmaz müəllimim



Deyənlər haqlıymış, çox həqiqətlər baş verdiyi zamanda yox, müəyyən bir dövr keçəndən sonra dəyərini göstərir. Ali məktəb illəri. Bir-birindən parlaq və maraqlı keçən günlər. Qəribə görünsə də, həyatımıza bu rəngarəngliyi, parlaqlığı qatan müəllimlər oldular. Ali məktəbə qədərki təsəvvürümüz bir az başqaydı. Elə bilirdik ki, ali məktəb müəllimləri orta məktəb müəllimləri kimi deyil. Ali məktəb müəlliminin işi öyrətmək, yenə öyrətmək - bilik verməkdir. Qalan məsələlər - tələbə həyatının mənalı keçməsinin, dərsdənkənar vaxtlarının səmərəli olmasının onlara heç bir aidiyyəti yoxdur. Bu işlərlə məşğul olmaq orta məktəb müəllimlərinin üzərinə düşür. Deyim ki, təhsil aldığımız və bizə dərs deyən, o vaxtlarda sadəcə Lenin adına APİ adlanan ali məktəbin müəllimləri özümüzlə Azərbaycanın müxtəlif rayon və kəndlərindəki orta məktəblərdən gətirdiyimiz o təəssüratı çox tez "alt-üst" etdilər. Səmimiyyətlə bildirirəm: Filologiya elmləri doktoru Nəmidə Abbasova bu prosesdə daha böyük rol oynadı. İndi özüm də ali məktəb müəllimi olaraq düşünürəm ki, bizə şəxsi nümunəsi ilə "Müəllim, daha çox da ali məktəb müəllimi necə olmalıdır?" kimi ciddi suala cavab tapmaqda kömək etdi.

Nəmidə xanım bizim qrupda "Azərbaycan dili" fənnini tədris edirdi. Birinci dərsə daxil olanda hamımız ayağa qalxıb, salamını aldıq. Sonra sual-cavab eləməyə başladı. Bildik ki, orta təhsil mərhələsində aldığımız biliklərin səviyyəsini müəyyənləşdirmək istəyir.

Sual-cavabın nəticəsindən nə dərəcədə razı qaldığını, yaxud, qalmadığını bilə bilmədik. Amma gördük ki, bəzi tələbələrin cavablarından üzü daha da işıqlanır. İlk görüş biz tələbələrin yadında belə də qaldı-nurlu müəllim.

Beləliklə, ali məktəb həyatı ilə tanış olduqca Nəmidə xanımın necə böyük insan, yaradıcı müəllim, tələbələrdən qayğısını əsirgəməyən mehriban ana olduğunu daha çox hiss edirdik. Yəqin, institutun rəhbərliyi, müvafiq təşkilatlar da biz görənləri, yəni Nəmidə xanımın müsbət cəhətlərini, ünsiyyətdə olduğu insanlara, xüsusən də tələbələrə münasibətini, elmi yaradıcılıqdakı uğurlarını, çox da uzun olmayan bir vaxtda həm namizədlik, həm də elmlər doktorluğu dərəcələrini almasını, professor adına yüksəlməsini görür, bunları dəyərləndirirdilər. Biz bunu Nəmidə Abbasova institutun fakültələrindən birinə, iki ixtisası birləşdirən pedaqoji fakültəyə dekan təyin ediləndə bir daha gördük.

Bəlkə də elmi şuranın üzvlərindən sonra Nəmidə xanımın dekan seçilməsi xəbərindən ən tez xəbər tutan 531-ci qrupun tələbələri oldular. Sevinirdik. Qərara aldıq ki, sevincimizi bildirmək üçün Nəmidə xanımı təbrik edək. Dekanlığa gec gəldi. Amma gözlədik. Gəldi. Hiss olunurdu ki, təbrikimizdən məmnun qalıb, bəlkə də elə dekan seçiləndə sevindiyindən daha artıq sevinib. Dekanın kabinetinə girməzdən bizimlə xeyli söhbət etdi. Ətrafımıza toplaşanların sayı getdikcə artırdı.

Biz tələbələr ilk dəfə onda gördük ki, fəaliyyəti dövründə görəcəyi işlərlə bağlı dekan tələbələrə bu qədər geniş məlumat verir. Daha maraqlısı isə bu idi ki, o, dekanlıqda uğurların taleyinin müəllimlərlə, digər işçilərlə yanaşı tələbələrdən də asılı olduğu barədə bizdə inam yaratdı. İndi o illərdən uzaq bir məqamda dayanaraq düşünürəm ki, Nəmidə xanım təkcə yaxşı insan, dəyərli alim, dilini, bu dilə qayğı göstərənləri, onun qorunmasında, formalaşmasında zəhməti olanları sevən bir şəxsiyyət olmayıb, həm də pedaqoji işi yaxşı bilən, peşəkar bir müəllim imiş.

Tezliklə fakültədə tələbə həyatı daha da canlanmağa başladı. Tələbələrin indiki müstəvidən baxdıqda heç də cəlbedici görünməyən təşəbbüsləri belə dekanlıq tərəfindən diqqətlə dinlənilir, onun həyata keçirilməsi üçün tədbirlər görülürdü. Akademik qruplararası yarışlar genişlənməyə başladı. Yarışların nəticəsi semestr imtahanlarından sonra müəyyənləşdirilirdi. Ən çox əlaçısı olan qruplara üstünlük verilirdi. Amma əlaçı olmaq birinciliyin taleyini tam həll etmirdi. İnstitutun ictimai həyatında fəal iştirak, tələbə elmi cəmiyyəti xətti ilə çıxışlar, nisbətən zəif oxuyan tələbələrə göstərilən kömək də nəzərə alınırdı. Dekanımız professor N.Abbasovanın gizli və açıq təsiri, təşəbbüsü ilə həyata vəsiqə alan bu tədbirlər, əslində, fakültədə pedaqoji prosesin keyfiyyətcə daha da yaxşılaşmasında gözlə görünəcək dərəcədə mühüm rol oynayırdı.

O vaxtdan illər keçib. İndi ötən günləri yada salıram. Mənə dərs demiş müəllimlərim, o cümlədən, Nəmidə Kavı qızı Abbasova gözlərimin önündə canlanır. Həqiqətdir ki, onlar mənim kimi yüzlərlə insanın yoluna işıq salan, dünyanı daha gözəl edən nur kimi xatırlanır, yada salınır. Fikirləşirəm: Nəmidə xanım tələbələrin öz həyatlarını düzgün qura bilmələri üçün, gözəl insanlar, peşəkar mütəxəssislər olmalarından ötrü nələr etmirdi? Suala çoxsaylı faktlar əsasında cavab vermək mümkündür. Dövrün görkəmli şəxsiyyətləri, incəsənət xadimləri, yazıçıları ilə bilavasitə onun rəhbərliyi ilə keçirilən görüşləri, onların bizim formalaşmağımıza təsirini yəqin ki, həmin vaxtlarda lazımi səviyyədə başa düşmək çətindir. Biz tələbələr Tofiq Bayramla məhz Nəmidə xanımın təşəbbüsü ilə keçirilən görüşlərdə maraqla iştirak edirdik. Heç bir çağırış, məcburiyyət yox idi. Tədbirin keçirildiyi zal dolu olardı. Bəzən Tibb İnstitutunun bizim fakültə ilə qonşu olan binasından da tələbələr görüşlərə qatılardılar. Hiss edirdik ki, belə görüşlərdən bir qədər başqa cür, daxilən dəyişilmiş şəkildə çıxırıq. Şeirə, yaradıcılığa marağımız daha da artırdı. Kimi görüşə dəvət olunmuş şairə yaxınlaşıb avtoqraf alır, kimi çəkinə-çəkinə olsa da yazdığı şeirləri göstərirdi.

**Bir haşiyə:** T.Bayram yaxşı natiq idi. Bəlkə də elə buna görə ucadan danışmağı sevirdi. Güclü, bir qədər xırıltılı səsi vardı. Şeir deyəndə görürdük ki, tamamilə başqa "dünyadadır", səsinin tonu bir az da çoxalırdı. Yaxşı yadımdadır, belə görüşlərin keçirildiyi zal təmirsiz idi. Divarlarında, tavanında çatlar vardı. Rəhmətlik Nəmidə xanım Tofiq Bayramın diqqətinin divardakı bir çata yönəldiyini görüb (bəlkə də xəyala gedibmiş, heç çatı görmürmüş ) zarafatla dedi: Tofiq müəllim, divarlar sizinlə görüşdə çıxışınızda, səsinizin gurluğundan bu hala düşüb. Zalda bir səmimi gülüş yarandı. Hiss olunurdu ki, zarafat T.Bayramın da xoşuna gəldi. Səhv etmirəmsə, şairin bu məzmunda bir şeiri də var. Güman edirəm bu şeir həmin görüşdən bir xatirə kimi, onun təsiri ilə yaranıb.

Həmin dövrün diqqət mərkəzində olan, maraqlı şəxsiyyətlərindən biri də məşhur rəssam Səttar Bəhlulzadə idi. Yadımdadır, S.Bəhlulzadə ilə görüşümüz tələbələrin arzusu ilə keçirildi. Nəmidə xanıma bu böyük rəssamla görüşmək istədiyimizi dedik. Növbəti həftənin ilk günlərindən birində görüş baş tutdu. Bu cür görüşlərin təsirini konkret bir faktla vermək istəyirəm. Ağacəfər Həsənli indi tanınmış şairdir. O vaxtlar tələbə idi. Dəqiq bilirəm, Ağacəfərin tezliklə məşhurlaşan "Səttar Bəhlulzadə nağılı" məhz böyük sənətkar S.Bəhlulzadə ilə görüşdən sonra yaranmışdır.

Hər halda, bilirəm ki, fitrətən müəllim doğulmuş N.Abbasova belə tədbirlərin gənclərin həyatındakı rolunu yaxşı bildiyindən onların təşkilinə bu qədər önəm verirdi. Bunu da bilirəm ki, dekan vəzifəsi həmişə gərgin əmək tələb edən bir vəzifə olub. Nəmidə xanımı yaddaşlarda yaşadan xüsusiyyətlərdən biri də məhz budur: işin çoxluğuna baxmayaraq tələbələrdən qayğısını əsirgəməmək, onların xahiş və istəklərini maksimum şəkildə həll etmək - müasir dildə "tələbəyönümlü" (mərkəzdə tələbə olan) pedaqoji proses adlanır. Sən demə, bizim nəcib və gözəl dekanımız Nəmidə xanım tələbələrlə fəaliyyətini çox sonralar yenilik kimi təqdim edilən prinsiplərə əsaslanmaqla qururmuş. Nəmidə xanımdan bizi ayıran zaman böyüdükcə daha dərindən dərk edirəm ki, insanı əbədi edən, sonrakı nəsillərin yaddaşına köçürən xüsusiyyətlər hansılardır. Övladlarım Nəmidə xanım haqqında xatirələrimi şirin bir nağıl kimi dinləyirlər. Hiss edirəm ki, Nəmidə xanım onların da doğmasına çevrilib.

Professor N.Abbasova müəllimliklə yanaşı, həm də elm adamı, elmlə pedaqoji prosesin vəhdətini fəaliyyətində ciddi nəzərə alan alim olub. Qarşımdakı bir kitabını vərəqləyirəm. Azərbaycan mədəniyyətinin milli dəyərlər üzərində formalaşmasında əvəzsiz xidmətləri olmuş Cəfər Cabbarlının yaradıcılığında sözün qüdrəti ilə bağlıdır: "Cəfər Cabbarlı dramaturgiyasında söz". 1983-cü ildə "Yazıçı" nəşriyyatında çap olunub. C.Cabbarlı barədə, onun yaradıcılığının müxtəlif cəhətləri haqda çox yazılıb, ətraflı müzakirələr aparılıb. Onların hər biri dəyərlidir. Həmin tədqiqatlar yüksək qiymətə layiqdir. Bununla yanaşı, qətiyyətlə demək olar ki, N.K.Abbasovanın adını çəkdiyimiz əsəri indi də C.Cabbarlı yaradıcılığı ilə bağlı parlaq tədqiqatlardan biri olaraq qalır. Faktoloji zənginlik, dilçiliyin tədqiqat metodlarından yaradıcılıqla istifadə, alınan nəticələr əsərin həm nəzəri, həm də praktik qiymətini artırır. Tədqiqatın dil və üslub xüsusiyyətləri, başadüşülənliyi həmin əsərdən gələcəkdə də geniş şəkildə istifadə olunacağına bir işarədir. Professor N.Abbasovanın dilçiliyin müxtəlif istiqamətləri üzrə apardığı tədqiqatları, çap olunmuş digər əsərləri də birmənalı şəkildə onun dəyərli bir alim olduğunu sübut edir. Aydın olur ki, o, elmi, müəllimlik fəaliyyətini və təhsilin idarə olunmasını məharətlə əlaqələndirməyi bacaran, onların mayasında insanı, insanpərvərliyi görən bir ziyalı olub. Yəqin ki, yoluna işıq salan tələbələrindən biri kimi onun haqqında uzun illərdən sonra ürəkdən gələn yazı yazmağımın səbəblərindən biri də budur. Allah rəhmət eləsin, yeriniz behiştlik olsun, Nəmidə xanım!

**Oqtay ABBASOV,** *ADU-nun dosenti*

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Bakı Slavyan Universiteti

## professor, dosent və baş müəllim vəzifələrini tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**Kafedralar üzrə professor vəzifəsini tutmaq üçün:**

1. Şərqi Slavyan filologiyası - 1 yer
2. Ədəbiyyat nəzəriyyəsi - 3 yer
3. İctimai elmlər - 1 yer
4. Xarici dillər və tərcümə - 1 yer

**Kafedralar üzrə dosent vəzifəsini tutmaq üçün:**

1. Rus dili - 7 yer
2. Roman-german filologiyası - 6 yer
3. Roman-german dilləri - 1 yer
4. İnformasiya-kommunikasiya texnologiyaları - 2 yer
5. Şərqi Slavyan filologiyası - 5 yer
6. Ədəbiyyat nəzəriyyəsi - 1 yer
7. Balkanşünaslıq - 2 yer
8. Regionşünaslıq - 2 yer
9. Xarici dillər və tərcümə - 4 yer
10. Xarici dillərin tədrisi və metodikası - 1 yer

**Kafedralar üzrə baş müəllim vəzifəsini tutmaq üçün:**

1. Rus dili - 7 yer
2. Azərbaycan dili - 3 yer
3. Roman-german dilləri - 3 yer
4. İnformasiya-kommunikasiya texnologiyaları - 5 yer
5. Tibbi biliklərin əsasları və mülki müdafiə - 2 yer
6. Psixologiya - 1 yer
7. Qərbi Slavyan filologiyası - 2 yer
8. Şərqi Slavyan filologiyası - 2 yer
9. Ədəbiyyat nəzəriyyəsi - 2 yer
10. İctimai elmlər - 3 yer
11. Regionşünaslıq - 3 yer
12. Xarici dillər və tərcümə - 1 yer

Müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər.

**Qeyd:** BSU-da çalışan əməkdaşlar yalnız 1,3,4,5 və 6-cı bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər.

*1) Rektorun adına ərizə;*
*2) Kadrlar uçotunun şəxsi vərəqəsi;*
*3) Ali təhsil haqqında diplomun surəti;*
*4) Elmi dərəcə haqqında diplomun surəti;*
*5) Elmi ad haqqında diplomun surəti;*
*6) Elmi və elmi metodiki işlərin siyahısı.*

**Ünvan:** Bakı AZ 1014, S. Rüstəm küçəsi 33.
**Telefon:** (012) 599-08-70 (daxili 208)

REKTORLUQ

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Naxçıvan Dövlət Universiteti

## aşağıdakı dekan və kafedralar üzrə

## ELAN EDİR:

**Dekan vəzifəsini tutmaq üçün**

1. Fizika-riyaziyyat fakültəsi
2. Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsi
3. İqtisadiyyat və idarəetmə fakültəsi
4. Tibb fakültəsi
5. Beynəlxalq münasibətlər və hüquq fakültəsi

**Kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. Nəqliyyat mühəndisliyi və texniki fənlər kafedrası
2. İngilis dili və tərcümə kafedrası
3. Şərq dilləri kafedrası
4. Xalq çalğı alətləri kafedrası
5. Biologiya kafedrası
6. Klinik fənlər və hərbi tibb kafedrası
7. Stomatologiya kafedrası
8. Avropa dilləri kafedrası
9. Ümumi hüquq kafedrası
10. Dövlət və ictimai münasibətlər kafedrası

**Kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün**

*1. Ümumi və nəzəri fizika kafedrası*
- dosent - 1 yer

*2. İnformatika kafedrası*
- müəllim - 1 yer

*3. Ümumi riyaziyyat kafedrası*
- dosent - 1 yer (0,5 ştat), baş müəllim - 1 yer

*4. İngilis dili və metodika kafedrası*
- dosent - 1 yer (0,5 ştat)

*5. Texnologiya kafedrası*
- dosent - 1 yer

*6. Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrası*
- professor - 1 yer, dosent - 1 yer, müəllim - 1 yer

*7. Kimya kafedrası*
- dosent - 1 yer (0,5 ştat)

*8. Təməl tibb fənləri kafedrası*
- müəllim - 1 yer

*9. Əczaçılıq və biokimya kafedrası*
- dosent - 1 yer

*10. Coğrafiya kafedrası*
- müəllim - 1 yer

Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

**Ünvan:** Naxçıvan şəhəri, universitet şəhərciyi
**Telefon:** (036) 545-23-66/10-01

REKTORLUQ

# Məktəblər arasında respublika çempionatının rayon mərhələsi

Məktəblər arasında respublika çempionatının atletika idman növü üzrə rayon mərhələsi yekunlaşıb. Qaradağ rayonu üzrə 184, Nəsimi rayonu üzrə 5, Binəqədi rayonu üzrə 313, Yasamal rayonu üzrə 60, Xətai rayonu üzrə 17, Nizami rayonu üzrə 251, Nərimanov rayonu üzrə 207, Sabunçu rayonu üzrə 148, Suraxanı rayonu üzrə 280, Xəzər rayonu üzrə 322 nömrəli tam orta ümumtəhsil məktəbləri, Səbail rayonu üzrə 160 nömrəli Klassik Gimnaziya zona mərhələsinə vəsiqə qazanıblar.

Qeyd edək ki, məktəblər arasında respublika çempionatı Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə keçirilir.

Respublika çempionatının keçirilməsində məqsəd məktəblilər arasında bədən tərbiyəsi və idmanı təbliğ etmək, şagirdlər arasında sağlam və aktiv həyat tərzini təşviq etmək, ümumi təhsil müəssisələrində fiziki tərbiyə fənninin tədrisini, sinifdənxaric və məktəbdənkənar kütləvi bədən tərbiyəsi və idman işlərini daha da təkmilləşdirmək, idmançıların yarış təcrübəsini artırmaq, idman federasiyaları ilə əməkdaşlığı genişləndirmək, təhsil müəssisələrinin idman bazalarından səmərəli istifadəni təşkil etməkdən ibarətdir.

Məktəblər arasında respublika çempionatının 2025-ci ilin oktyabr-dekabr aylarında atletika, basketbol və badminton idman növləri üzrə keçirilməsi nəzərdə tutulur.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003
**Tiraj:** 36157 **Sifariş:** 2237
**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Bakı şəhər** 63 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Gülməmmədov Azər Bəxtiyar oğluna verilmiş 114784 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Qonaqkənd qəsəbə tam orta məktəbi 1987-ci ildə bitirmiş Hüseynova Nərgiz Hüseyn qızına verilmiş 315378 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Şorbaçı kənd tam orta məktəbi 2022-ci ildə bitirmiş Kərimova Leyla Sanil qızına verilmiş E-532803 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər Humanitar və təbiət fənlər təmayüllü məktəb-liseyi** 2022-ci ildə bitirmiş Həsənova Aydan Valeh qızına verilmiş E-526992 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 249 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Mehdizadə Ayşən Məhərrəm qızına verilmiş B-687397 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Böyük Dəhnə kənd 2 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Səlimova Gülnur Zaur qızına verilmiş E-512634 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şahbuz rayon** Qızıl Qışlaq kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Əliyev Bəhruz Alməmməd oğluna verilmiş A-281038 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Kolleci** tərəfindən 2000-ci ildə Əhmədova Xatirə Fehruz qızına verilmiş AB-II-046070 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** M.Füzuli adına 6 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Qasımova (Süleymanova) Səbinə Abdulhəmid qızına verilmiş A-067604 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Əli Bayramlı Sənaye Texnikumu** tərəfindən 1987-ci ildə Əliyev Üzeyir Maqsud oğluna verilmiş ИТ-034106 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 62 nömrəli məktəb-liseyi 2022-ci ildə bitirmiş Məmmədov Hikmət Elşad oğluna verilmiş E-462076 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu** tərəfindən 1985-ci ildə Məmmədov Eldəniz İbad oğluna verilmiş HB-968750 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2019-cu ildə Xəlilzadə Orxan Xəlil oğluna verilmiş C-032269 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Miriyeva Lumu Miryusif qızına verilmiş B-028004 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Novruzov qardaşları adına 36 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Tağıyeva (Şükürova) Könül Zöhrab qızına verilmiş B-543543 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2008-ci ildə Məmmədov Sarxan Murad oğluna verilmiş MNB-017515 nömrəli magistr fərqlənmə diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Şiştəpə kənd tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Hüseynova (Alıyeva) Leyla Məhərrəm qızına verilmiş B-612040 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 42 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Həsənquliyeva Aidə Dadaş qızına verilmiş B-149471 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2018-ci ildə Paşayeva Aynur Əliqulu qızına verilmiş AT-004661 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Düz Qırıqlı kənd 1 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Rəhimova Aysun Razim qızına verilmiş E-529020 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 2 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Səfərova Gülçöhrə Əlişah qızına verilmiş B-523137 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Məktəbəqədər Pedaqoji Texnikumu** (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec) tərəfindən 1999-cu ildə Təhməzova (Mərdanova) Yeganə Musa qızına verilmiş AB-II-049916 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şuşa Musiqi Texnikumu** tərəfindən 2007-ci ildə Abdullayev Elçin Hüseyn oğluna verilmiş BB-II-054117 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Asiya Universiteti** tərəfindən 2006-cı ildə Saadova (Hüseynova) Ülviyyə Lətif qızına verilmiş B-073337 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 282 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Məmmədova Ruhiyyə Mirzağa qızına verilmiş A-069733 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 11 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Yunusov Elmir Ehtibar oğluna verilmiş E-069397 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2011-ci ildə Rüstəmli Elnur Rüstəm oğluna verilmiş B-199811 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 1993-cü ildə bitirmiş Məmmədova (Ağayeva) Ruhiyyə Rəhman qızına verilmiş A-040476 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş İbayeva Aygün Kazım qızına verilmiş B-043341 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Qurbanov Elvin Tərlan oğluna verilmiş A-441902 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbin VIII sinfini 1997-ci ildə bitirmiş Hüseynov İlham Soltanağa oğluna verilmiş B-163201 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2003-cü ildə Eyvazova (Eyvazlı) Cəmilə Vaqif qızına verilmiş A-122560 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə və 2005-ci ildə verilmiş MNB-003276 nömrəli fərqlənmə magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**7 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 1989-cu ildə Korjov Oleq Mixayloviçə verilmiş B-100772 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Lürən kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Bağışov Rəşad Aydın oğluna verilmiş B-026492 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Miyankü kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Tahirov İntiqam Balaqulu oğluna verilmiş B-059272 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2016-cı ildə Əliyeva Aliyə Əbülfət qızına verilmiş A-111594 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Zövlə kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Cabbarova Miranə Novruz qızına verilmiş B-065946 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Qazyan kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Muxtarova (Quliyeva) Yazgül Zabil qızına verilmiş B-395349 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 97 nömrəli tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Qurbanova Ləman Rövşən qızına verilmiş E-138421 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 38 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Nuri Tərlan Bəybala oğluna verilmiş E-228675 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 126 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Musayev Teymur Səyavuş oğluna verilmiş E-017873 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 10 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Lətifova (Ağazadə) Nuranə Ağafət qızına verilmiş A-486503 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2018-ci ildə Heydərli (Məmmədova) Fidan Elsevər qızına verilmiş C-009690 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2013-cü ildə Şahmar Adil oğluna verilmiş A-010846 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Ağdaş kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Seyfullayeva (Xəlilova) Yeganə Qılıncxan qızına verilmiş B-034514 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2024-cü ildə Talıbov Ravil Famil oğluna verilmiş C-227127 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 18 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Hüseynov Fərhad Mais oğluna verilmiş 042511 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2017-ci ildə Mehrəliyev İsmayıl Seymur oğluna verilmiş A-128234 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Kür qəsəbə tam orta ümumtəhsil məktəbi 2000-ci ildə bitirmiş Məmmədova Gülnarə Sabir qızına verilmiş A-434154 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universiteti** tərəfindən 2025-ci ildə Abdurahmanova (Ramazanova) Fərqanə Namiq qızına verilmiş C-256889 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 15 nömrəli tam orta məktəbi (indiki Mingəçevir şəhər Texniki və Humanitar fənlər liseyi) 2005-ci ildə bitirmiş Səfərova Nigar Ədalət qızına verilmiş B-181720 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 3 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Axundova Ülkər Munis qızına verilmiş 028376 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 6 nömrəli tam orta məktəb-liseyi 2006-cı ildə bitirmiş Ramazanov Rüstəm Hüseyn oğluna verilmiş B-274906 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.